# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"XII Qlobal Forum dünyaya mesaj xarakteri daşıyırdı"



8

№ 051 (7219)

SƏS

20 mart 2025-ci il.
Qiymәti 60 qәpik

# Suqovuşanlılar yurd torpaqlarında



2

Prezident İlham Əliyev: "İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb"

# Təbiətin və kainatın töhfəsi - NOVRUZ!



11

## Razılaşdılar, amma...



5

## Avropada radikallaşmaya səbəb olan PROBLEMLƏR



13

## Yer su qiyamətinin bir addımlığındadır



15

## ABŞ-da insanabənzər robotlar istehsal olunacaq



16

## Ulduz futbolçu ən böyük iki arzusunu açıqladı



16

**_Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsindəki tarixi qələbədən dərhal sonra Ermənistan tərəfindən vandallığa məruz qalan ərzilərimizdə bərpa və yenidənqurma işləri başladı. Dağıdılmış kəndlərin və şəhərlərin yerində qısa müddətdə ”ağıllı kənd”lərin təməli qoyuldu. Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ”Dəmir yumruq” əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu 2020-ci ilin oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz və Talış kəndlərini işğaldan azad etdi. Bu xoş müjdəni tviter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı Madagiz qəsəbəsinin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı._**

# Suqovuşanlılar yurd torpaqlarında

## Prezident İlham Əliyev: "İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb"









Beləliklə, 1990-cı illərin əvvəllərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Suqovuşan Vətən müharibəsinin yeddinci günündə azadlığına qovuşdu. Bu gün artıq işğaldan azad olunan digər ərazilərimiz kimi Suqovuşanda yeni dövrünü - abadlıq-quruculuq dövrünü yaşayır.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərə səfərləri tarixin yaddaşında zəngin hadisələrlə yadda qalır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim ediblər.

### ”YAXŞI, RAHAT YAŞAMAQ, İŞLƏMƏK ÜÇÜN BÜTÜN İMKANLAR”

Vurğulamaq yerinə düşər ki, kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan ”Suqovuşan-1” və ”Suqovuşan-2” Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda ”istirahət kompleksi layihəsi” icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.

Xalqın əziz bayramı olan İlaxır çərşənbə günündə Həsənriz kəndində tonqalı alovlandıran, 2022-ci ildə bu Novruz tonqalını Suqovuşan kəndində qalamışdı. ”O vaxt göstəriş verdim ki, buraya insanların köçürülməsi üçün şərait yaradılsın. Bu evlər tikildi, çox gözəl, yaraşıqlı evləriniz. Sıfırdan tikilib və bütün şərait var. Şadam ki, artıq birinci sakinlər bu evlərdə yerləşir və burada rahat yaşayacaqlar”. Bu sözləri fikirləri Prezident İlham Əliyev Ağdərənin Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində çıxışı zamanı söyləyib: ”Burada yaşamaq üçün bütün şərait var. Evlər çox gözəl, geniş, işıqlı evlərdir. Təbiət də təbii olaraq bu bölgəyə əlavə dəyər verir. Gözəl su anbarının yanında yaşamaq, əlbəttə ki, adamın zövqünü oxşayır. Ona görə burada yaxşı, rahat yaşamaq, işləmək üçün bütün imkanlar var və şadam ki, artıq Suqovuşan kəndində də keçmiş köçkünlər yerləşirlər”.

### ”BÖYÜK YAŞAYIŞ MƏNTƏQƏSİNİN İŞĞALÇILARDAN AZAD EDİLMƏSİ XÜSUSİ ƏHƏMİYYƏTƏ MALİK İDİ”

Suqovuşan Azərbaycan Ordusu üçün çox böyük strateji əhəmiyyətə malik ərazilərdən idi. Suqovuşanın azad edilməsi ilə mühüm əhəmiyyətə malik təminat yolları Azərbaycanın nəzarətinə keçdi. Bu döyüşlərdə Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirdi. Suqovuşan strateji baxımdan çox əhəmiyyətli olduğundan bu yaşayış məntəqəsinin azad edilməsi Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə mühüm rol oynadı. ”Bu kənd İkinci Qarabağ müharibəsinin ilk həftəsində işğalçılardan azad edilmişdir. Bu, bizim birinci əhəmiyyətli uğurlarımızdan, hərbi qələbələrimizdən biri idi. Bildiyiniz kimi, 44 gün ərzində bizim Ordumuz, bütün Silahlı Qüvvələrimiz ancaq irəliyə gedirdi və hər bir kəndin, hər bir qəsəbənin azad olunması Ordumuza, bütün xalqımıza əlavə ruh verirdi. Özü də böyük yaşayış məntəqəsinin işğalçılardan azad edilməsi xüsusi əhəmiyyətə malik idi”, - deyə Prezident diqqətə çatdırıb: ”Suqovuşan kəndi birinci kənd idi ki, işğalçılardan azad edildi. Təkcə bununla bu kəndin əhəmiyyəti məhdudlaşmır. Çünki bildiyiniz kimi, bunun çox böyük strateji əhəmiyyəti var. Bax, bu kəndin ətrafında və su anbarının ətrafında yerləşən bütün mövqelərdə qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun şəxsi heyəti yerləşmişdi”.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın qəhrəman əsgər və zabitləri öz canları və qanları bahasına torpaqlarımızı düşmən işğalından azad etdilər. Azərbaycan əsgəri dünyaya bir qəhrəmanlıq nümunəsi göstərdi və dünya hərb elminə yeni strategiyalar, yeni taktikalar gətirdi. Bütün dünya mediyası ordumuzun Qarabağdakı hərbi əməliyyatlarda istifadə etdiyi yeniliklərdən, hərbi taktikalardan, strategiyalardan danışırdı.

Ordumuz Şuşanı işğaldan azad etməklə düşmənin döyüş ruhunu məhv etdi. ”Vətən uğrunda döyüşmüş, qəhrəmanlıq göstərmiş hərbçilərimizi biz hər zaman qiymətləndiririk. Biz gənc nəslin qəhrəmanlığı, şücaəti hesabına torpaqlarımızı geri aldıq, işğalçıları torpaqlarımızdan qovduq”, - deyən Prezident bildirib ki, bu, uzun bir proses idi: ”İlk növbədə, dövlət quruculuğu prosesi getməli idi və güclü dövlət qurulmalı idi ki, bu gün Azərbaycan dünyada sayı o qədər də çox olmayan müstəqil siyasət apara biləcək ölkədir. İqtisadi inkişaf təbii ki, olmalı idi. Çünki bizə heç kim kömək etmirdi. Bu gün də heç kim kömək etmir və buna ehtiyac da duymuruq. Ona görə öz gücümüzə əsaslanaraq iqtisadi imkanlar yaratmalı idik ki, maliyyə imkanlarımız olsun. Güclü Ordu yaratmalı idik, bunu da etdik. Ordumuzu təchiz etməli idik, onu da etdik. Ordumuzun döyüş qabiliyyətini artırmaq üçün müntəzəm işlər gedirdi. Əlbəttə ki, gənc nəslin yetişdirilməsi. Vətənpərvərlik ruhunda, dövlətə, xalqa bağlı olan gəncləri yetişdirdik”.

### ”İLYARIM BUNDAN ƏVVƏL BİRGÜNLÜK ANTİTERROR ƏMƏLİYYATI SEPARATÇILIĞIN KÖKÜNÜ KƏSDİ”

Azərbaycan Ordusu antiterror tədbirlərinin qarşısını alaraq tariximizə uğurlar həkk etdi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi. Əməliyyat zamanı Azərbaycan Ordusu müasir hərbi texnika və yüksək dəqiqlik vasitələrdən istifadə edərək strateji mövqelərdə yerləşdirilmiş qanunsuz erməni silahlı qüvvələrini sıradan çıxardı. Beləliklə, Ağdərə, Xoçavənd, Xocalı və Xankəndidən separatçıların qovulması ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu.

Ardı Səh. 3

# Suqovuşanlılar yurd torpaqlarında

## Prezident İlham Əliyev: "İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb"

Əvvəli səh. 2

Tədbir zamanı şanlı ordumuz tərəfindən mülki əhali və infrastruktur obyektləri qətiyyən hədəf alınmamış, yalnız legitim hərbi hədəflər sıradan çıxarılmışdır. Bütün bu tədbirlər sübüt edir ki, Azərbaycan dövləti hər zaman erməni əsilli əhalisinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər görməyə hazırdır.

"İndi dünyada müharibələr, qanlı toqquşmalar kifayət qədər geniş vüsət alır. İndi internet dövründə, informasiya azadlığı dövründə hər kəs hər şeyi bilir, görür və izləyə bilir", - deyən Prezident bildirib: "Görürük ki, heç də hər bir ölkə öz maraqlarını, ədalətli maraqlarını özü təmin edə bilmir, ya da öz ərazi bütövlüyü uğrunda mübarizə aparır, amma nəticəyə çata bilmir, ya da ki, hər hansı bir kiçikhəcmli hərbi uğura nail olur, amma tam qələbə əldə edə bilmir. Yəni, sadəcə olaraq, bu gün dünyada gedən toqquşmalara, münaqişələrə, müharibələrə nəzər salsaq, son tarixin müharibələrinə nəzər salsaq, hətta deyə bilərəm ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb". Bizim Qələbəmizin tam olduğunu bildirən Azərbaycan Prezidenti qeyd edib ki, bu, həm dövlətimizin, Silahlı Qüvvələrimizin gücünü, həm də xalqımızın iradəsini göstərir: "İlyarım bundan əvvəl birgünlük antiterror əməliyyatı separatçılığın kökünü kəsdi, onunla da məsələ bitdi, onların kitabı bağlandı. Bu gün də biz bu gözəl bayramı burada qeyd edirik".









### BU GÜN AZƏRBAYCAN QURUCULUQ MEYDANINDA İMZA ATDIĞI LAYİHƏLƏRİ İLƏ SÖZÜNÜ DEYİR





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılışında da iştirak ediblər. Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub. Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ilin martında bu ibadət ocağının təməlqoyma mərasimində iştirak ediblər. Bu məsciddə yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsünə və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib və ya əsaslı şəkildə bərpa edilib. Suqovuşan kəndindəki məscidin tikintisi, eyni zamanda, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

Göründüyü kimi, Azərbaycan bu gün quruculuq meydanında imza atdığı layihələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülür. Əlbəttə ki, strateji əhəmiyyət kəsb edən məsələlərin çevik həllinə xidmət edən peşəkar idarəetmə sisteminin mövcudluğu işlərin sürətlə və səmərəli həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Bu sənəd əhalinin doğma torpaqlarına geri qayıdışı məsələlərini, məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, məşğulluq imkanlarını artırmaqla yanaşı, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etməklə hədəflənən məqsədlərin sürətli və keyfiyyətli icrasına öz töhfəsini verəcəkdir.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***





# "Siz Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız"

*Prezident İlham Əliyev Sahibə Qafarovaya "Şərəf" ordenini təqdim edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Sahibə Qafarovanı qəbul edib və ona "Şərəf" ordenini təqdim edib. Prezident İlham Əliyev:***

-Hörmətli Sahibə xanım, sizi yubileyiniz münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Siz uzun illərdir Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız. Milli Məclisin deputatı kimi 15 il və Milli Məclisin sədri kimi 5 ildir uğurlu fəaliyyət göstərirsiniz. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm, həm seçicilərlə daim təmasda olursunuz, eyni zamanda, ölkəmizin milli maraqlarını beynəlxalq arenada müdafiə edirsiniz və öz işinizlə ölkəmizin ümumi inkişafına dəyərli töhfə verirsiniz. Bu yubiley günündə mənim Sərəncamımla siz "Şərəf" ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "Şərəf" ordenini Sahibə Qafarovaya təqdim etdi.

Sahibə Qafarova: Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Təbrik edirəm.

Sahibə Qafarova dedi:

-Çox sağ olun, çox minnətdaram. Möhtərəm cənab Prezident, icazə versəniz, mən bir neçə söz deyərdim.

Möhtərəm cənab Prezident, bu yüksək təltifə görə dərin və səmimi minnətdarlığımı bildirmək istərdim. Onu da qeyd etmək istərdim ki, mən bu yüksək təltifi Azərbaycan Respublikası Milli Məclisinin işinin qiymətləndirilməsi kimi dəyərləndirirəm. Əmin etmək istəyirəm, möhtərəm cənab Prezident, həm Milli Məclisin bir üzvü kimi, həm Milli Məclisin sədri kimi, ümumiyyətlə, Milli Məclis adından demək istərdim ki, bizim hər birimiz Sizin apardığınız siyasətə həmişə parlament səviyyəsində dəstək olacağıq. Xalqın təmsilçiləri olaraq bütün Milli Məclis xalqın rifahı üçün parlament səviyyəsində əlindən gələni edəcək. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə çox minnətdaram. Mən ömür boyu işləmişəm ki, cəmiyyətimizə həmişə hansısa bir xeyir gəlsin. Mən əminliklə demək istəyirəm ki, bundan sonra da işlədiyim zaman Milli Məclisin sədri kimi, bir insan kimi, Azərbaycan vətəndaşı kimi həmişə əlimdən gələni edəcəyəm ki, işlədiyim yerdə öz vəzifəmi yerinə yetirim. Mən Sizə çox minnətdaram.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm.

# Bütöv Azərbaycanda Novruz tonqalları alovlandırılır!

Novruz bayramı xalqımızın milli-mənəvi irsini təcəssüm etdirən, xalqın tarixi kökünü, yaddaşlardan süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan milli bayramdır. Azərbaycan Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdə deyildiyi kimi, "Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur." Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş su, od, yel və torpaq çərşənbələri qeyd olunurdu. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Ataş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar.

Mənəvi dəyərlərimizin əbədiyaşarlıq rəmzi olan Novruz bayramını qeyd edirik. Elimizə, obamıza Novruz gəlib. Yeni gün, yeni müjdə gəlib. İlıq nəfəsi ilə elimizə yaz gəlib. Yazın gəlişi ilə bütün canlı təbiət yenidən oyanıb. Soyuq qış günlərindən sonra yazın gəlməsi insanlarda böyük əhvali-ruhiyyə yaranıb. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi




qaynaqlara bağlı olduğunu görürük. Dövlət başçısının təbrikində deyilir: "Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir."

## YÜZİLLİKLƏRİN ADƏT-ƏNƏNƏLƏRİ

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Novruz özündə milli folklorun bütün çalarlarını ehtiva edir. "Papaq atmaq", "qulaq falı", "tonqaldan tullanmaq", "üzük falı", "səməni əkmək", "yumurta döyüşdürmək" və Novruz bayramı ilə əlaqələndirilən digər məşhur adətlər Azərbaycan xalqının tarixini, onun zəngin folklorunu və fəlsəfəsini özündə ehtiva edir. Novruzda bayram masasının üzərində mərkəzində səməni olan xonçanın olması vacibdir. Səməninin ətrafına milli şirniyyatlar: paxlava - yer kürəsinin 4 istiqamətini, qoğal - günəşi, şəkərbura - ayı, rənglənmiş yumurta - həyatı simvolizə edir. Adətə görə süfrədə "S" hərfi ilə başlayan 7 məhsul olmalıdır: səbzi, sumaq, sirkə, səməni, süd, su və sünbül süfrədə olması vacib şərtdir. Bayram süfrəsinin əsas bəzəyi şah plovdur. Novruz bayramı qonşuları, dostları xonçaya yığılmış şirniyyatlara qonaq etməklə davam edir.

## "HƏR KƏSİN EVİNDƏ MÜTLƏQ SƏMƏNİ DƏ, RƏNGLƏNMİŞ YUMURTALAR DA, PLOV DA VAR İDİ"

Məlumdur ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə həsr edən Ümummilli Lider, Ulu Öndərimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə imperiyanın sərt qadağalarına baxmayaraq, xalqımızın yaddaşında kök salmış Novruz bayramı qeyd edilmişdir. Belə ki, Ulu Öndərin müdrik siyasəti nəticəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onilliklər biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir və öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan - zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan insan da onu bayram edir. O illər ki, bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar da, plov da var idi". Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sonra, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin bilavasitə səyləri nəticəsində Novruz bayramı dövlət bayramı elan olunmuş, şəxsən Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, şanlı Ordumuzun gücü ilə işğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda 30 ildən sonra Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. İlk olaraq Şuşada Novruz tonqalı qalandı. Prezident İlham Əliyev 20 mart 2021-ci il tarixində Şuşada Novruz bayramı təbrikində belə demişdir: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik". İndi bütöv Azərbaycanda Novruz tonqalları alovlandırılır. Novruz bayramınız MÜBARƏK! Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***Zümrüd BAYRAMOVA***

# Razılaşdılar, amma...

## Vladimir Putin və Donald Tramp Ukrayna sülhünün şərtləri ilə bağlı razılığa gəliblər

***ABŞ və Rusiya prezidentləri Donald Tramp və Vladimir Putin arasında son ay yarımda ikinci dəfə telefon danışığı baş tutub. Martın 18-də keçirilən danışıqlar zamanı Ukrayna münaqişəsi ilə bağlı əsas razılaşmalara nail olmaq üçün növbəti cəhdlərini ediblər. Sıçrayışlı həll yollarının olmamasına baxmayaraq, tərəflər Ukrayna münaqişəsi üzrə dialoqda irəliyə doğru addım ataraq, onun uzunmüddətli həllinə hazır olduqlarını nümayiş etdiriblər. Moskvanın 30 günlük atəşkəs təklifi ilə bağlı sərt mövqeyi söz savaşına səbəb olmayıb və tərəflərin əməkdaşlığın inkişafı, o cümlədən iqtisadiyyat və enerji sahələrində razılığa gəlməsinə mane olmayıb.***

Rusiya və ABŞ prezidentləri arasında başlayan və dünyanın səbirsizliklə gözlədiyi telefon danışığı Donald Trampın Ağ Evə qayıtmasından sonra onların ikinci ünsiyyəti olub. Ağ Ev bildirib ki, söhbət iki saat yarımdan çox davam edib. Son həftələrin təmaslarını nəzərə alsaq, iki lider arasında yeni dialoq, ilk növbədə, Amerikanın Ukrayna və Rusiya arasında 30 günlük atəşkəs təşəbbüsünün həyata keçirilib-keçirilməyəcəyi ilə bağlı mübahisədə həqiqət anı olmalı idi. Vladimir Putin martın 13-də ABŞ-ın Ukraynada atəşkəslə bağlı təklifi ilə razılaşdığını, eyni zamanda ondan hərbi əməliyyatların bərpası üçün istifadə edilməsinin qəbuledilməz olduğunu bildirdikdən sonra sual yarandı: prezident Tramp Ukraynada səfərbərliyin dayandırılmasını və ona silah verilməsini tələb edən Moskvanı yarı yolda qarşılamağa hazır olacaqmı?

Moskvanın sadəcə olaraq atəşkəsi pozmaq üçün bəhanə axtardığına inanan Ukrayna və onun avropalı müttəfiqləri, əvəzində Donald Trampdan yeni sanksiyalar təhlükəsi altında Vladimir Putindən qeyd-şərtsiz atəşkəs tələb etməsini gözləyirdilər. "Biz çox kritik mərhələyə yaxınlaşırıq və Rusiya və Ukrayna məsələsini tamamilə həll etmək istəyirik. Düşünürəm ki, Ukrayna bunu istəyir, bilirəm ki, onlar istəyirlər. "Bütün oyunçular bunu istəyir" Donald Tramp öz mövqeyini açıqlayıb.

Bununla belə, Trampın Rusiya lideri ilə söhbəti ərəfəsində onun "razılaşma" sözünü işlətdiyi başqa bir mesajı situasiyanı qarışdırıb: ABŞ prezidenti qəfildən yekun nizamlanma haqqında danışmağa başlayıb. "Truth Social" sosial şəbəkəsində o, "yekun razılaşmanın bir çox elementlərinin razılaşdırıldığını, lakin razılaşdırılmalı olan çox şey olduğunu" yazıb. Bu gözlənilməz qəbul, Ukrayna və Rusiyanın sülh sazişinin şərtlərini müzakirə etmək üçün hələ qruplar yaratmadığını nəzərə alsaq, hansı "yekun razılaşma"nın müzakirə oluna biləcəyi ilə bağlı suallar doğurdu.

Bu arada, çoxsaylı boşluqlara baxmayaraq, iki liderin söhbətindən sonra Kremlin yaydığı bəyanatda onların söhbəti "Ukrayna ətrafındakı vəziyyətlə bağlı ətraflı və səmimi fikir mübadiləsi" adlandırılıb.

"Vladimir Putin hərbi əməliyyatlara və insan itkilərinə son qoymaq kimi nəcib məqsədə nail olmaqda kömək etmək istəyinə görə Donald Trampa minnətdarlığını bildirib", - məlumatda deyilir. Rusiya prezidenti həmçinin amerikalı tərəfdaşları ilə hərtərəfli, davamlı və uzunmüddətli olmalı olan vəziyyətin mümkün həlli yollarını hazırlamaq üçün işləməyə hazır olduğunu bəyan edib. Eyni zamanda, Amerikanın 30 günlük atəşkəs təklifinin həyata keçirilməsi istiqamətində heç bir irəliləyiş yoxdur.

Kremlin bu məsələ ilə bağlı şərhi əvvəlki "nüanslar haqqında" bəyanatlardan nəzərəçarpacaq dərəcədə sərt tonlarda yazılıb. "Rusiya tərəfi bütün döyüş təmas xətti boyunca mümkün atəşkəsə effektiv nəzarətin təmin edilməsi, Ukraynada məcburi səfərbərliyin dayandırılması və Ukrayna Silahlı Qüvvələrinin yenidən silahlanmasının zəruriliyi ilə bağlı bir sıra mühüm məqamları qeyd edib. Dəfələrlə təxribat törədən və əldə olunmuş razılaşmaları pozan Kiyev rejiminin danışıqlar apara bilməməsi ilə bağlı ciddi risklər də qeyd edilib", - Kremlin bəyanatında deyilir.



Bundan əlavə, Rusiya tərəfi "xarici hərbi yardımın tamamilə dayandırılmasına və Kiyevə kəşfiyyat məlumatlarının verilməsinə" çağırıb.

Eyni zamanda, Kursk vilayətində mühasirəyə alınmış ukraynalı hərbçilərin həyatını xilas etmək çağırışı ilə əlaqədar Vladimir Putin təsdiqləyib ki, Moskva humanitar mülahizələri rəhbər tutmağa hazırdır və təslim olarlarsa, onlara "Rusiya qanunlarına və beynəlxalq hüquqa uyğun olaraq həyat və layiqli rəftar" zəmanəti verir. İki prezident tərəfindən bəyənilən təşəbbüs Donald Trampın münaqişə tərəflərinə 30 gün ərzində enerji infrastrukturu obyektlərinə hücumlardan qarşılıqlı şəkildə çəkinmək təklifi olub. "Vladimir Putin bu təşəbbüsə müsbət cavab verib və dərhal Rusiya hərbçilərinə müvafiq komanda göndərib", - Kreml bildirib.

Rusiya prezidenti Donald Trampın Qara dənizdə gəmiçilik təhlükəsizliyi ilə bağlı təşəbbüsü həyata keçirmək fikrinə də konstruktiv cavab verib. Öz növbəsində, ABŞ və Rusiya prezidentlərinin söhbətindən sonra Ağ Evin bəyanatında qeyd olunub ki, "hər iki lider Ukrayna münaqişəsinin davamlı sülhlə bitməsi ilə bağlı razılığa gəliblər". Məlumata görə, "liderlər sülhə doğru addımın enerji və infrastruktur sektorlarında atəşkəslə başlayacağı barədə razılığa gəliblər". Bundan əlavə, "hər iki lider qeyd edib ki, ABŞ və Rusiya arasında ikitərəfli münasibətlərin yeni səviyyəyə yüksəldiyi gələcək üçün böyük faydalar var". Vaşinqton izah edib ki, "böyük faydalar" Ukraynada sülhün əldə olunmasından sonra böyük iqtisadi sövdələşmələr və geosiyasi sabitlik kimi başa düşülməlidir.



### Xarici KİV Tramp-Putin danışığını necə qiymətləndirdi?

ABŞ prezidenti Donald Tramp və Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığı başa çatdıqdan bir neçə saat sonra Amerika və Avropanın aparıcı KİV-ləri iki liderin təmaslarının ilk nəticələrini və Ukraynadakı hərbi münaqişənin həlli üçün mümkün perspektivləri təhlil edir.

### The Wall Street Journal (Nyu York, ABŞ)

*Putin Trampın atəşkəs təklifini rədd etdi*

Rusiya Ukraynaya böyük ziyan vuracaq daha böyük güzəştlər istəyir. Əsas nəticə o oldu ki, cənab Putin cənab Trampın 30 günlük atəşkəs şərtləri ilə razılaşmadı, Ukrayna prezidenti Vladimir Zelenski isə razılaşdı. Doğrudanmı indi aydın deyilmi ki, sülhə əsl əngəl kimindir? Aydındır ki, Kreml hətta qısamüddətli atəşkəs üçün belə böyük güzəştlər tələb edir və bu, tam miqyaslı sülh sazişindən xeyli geri qalır. Bu yaxşı əlamət idi ki, cənab Tramp cənab Putinin irəli sürdüyü tələblərə boyun əymək niyyətində deyildi.

### HuffPost (Nyu-York, ABŞ)

*Putin Trampla telefon danışığında 30 günlük atəşkəs planından imtina edib*

Bununla belə, Kreml Ukraynanın enerji infrastrukturunun atəşə tutulmasını 30 gün müddətinə dayandırmağa razı olduğunu bildirib. Bununla belə, Tramp daha əvvəl nikbinliyini ifadə edərək, Putini Amerika planına əməl etməyə inandıracağını demişdi. Ukrayna prezidenti Vladimir Zelenskinin ABŞ-ın təklif etdiyi məhdud atəşkəsə necə cavab verəcəyi bəlli deyil, çünki Ağ Ev Kiyevin danışıqlarda konkret hansı rol oynayacağına dair hələ dəqiq mövqe bildirməyib.

### BBC (London, Böyük Britaniya)

*Putin Trampa Ukraynada sülhün əldə olunmasında irəliləyiş iddiası üçün kifayət qədər verdi*

Telefon danışığı öncəsi Donald Tramp Vladimir Putinlə söhbəti ilə bağlı böyük hay-küy salıb. Ancaq nəticələr belə görünür ki, bu cür ağlamalar üçün heç bir xüsusi səbəb yoxdur. Rusiya prezidenti Kremlin ondan sadəcə istifadə etdiyi təəssüratı yaratmadan, Amerika liderinə Ukraynada sülhə doğru irəliləyişdən danışmaq üçün kifayət qədər imkan verib... Qərb dünyasında üç il pariya kimi qaldıqdan və ondan xeyli əvvəl şaxtalı münasibətlər dövründən sonra Rusiya yenidən danışmağa hazır olan ABŞ administrasiyası ilə birbaşa məşğul olur. Və Putinin Ukrayna lideri Vladimir Zelenskinin iki həftə əvvəl Oval kabinetdə dözməli olduğu paltarı almasından əsər-əlamət yoxdur.

### The Guardian (London, Böyük Britaniya)

*Putinin tələbləri o qədər həyasızdır ki, onun ciddi olduğuna inanmaq çətindir.*

ABŞ prezidenti Putindən suallar, yarımçıq təkliflər və məhdud güzəştlər, həmçinin Ukraynanı zəiflətmək üçün ağlasığmaz tələb aldı ki, bu da istənilən sülh sazişini ələ salacaq. Təkcə ABŞ-dan deyil, Ukraynanı dəstəkləyən bütün ölkələrdən, o cümlədən Böyük Britaniyadan, Fransadan və hər kəsdən hərbi yardımın dayandırılması.

***Ardı Səh. 6***

Əvvəli Səh. 5

Amma bu, Ukrayna üçün məqbul olan mövqeyə belə yaxınlaşmır. Bu tələblər o qədər həyasızdır ki, Putinin onlara ciddi yanaşdığına inanmaq çətindir.

### Le Temps (Cenevrə, İsveçrə)

*Daha əvvəl atəşkəs təklifinə Moskvanın cavabı nə oldu*

Uzun gözləmədən sonra yalnız bir şey aydın oldu ki, 18 mart axşamı Donald Tramp və Vladimir Putin arasında iki ölkə arasında münasibətlərin bütün tarixində ən uzun (və kifayət qədər gərgin) telefon danışığı olub... İkincisi, demək olar ki, əminliklə demək olar ki, Ağ Evin sahibi dünən nə qədər razılaşsa da, bütün dünyaya elan edə bilməyəcək Ukraynada atəşkəs.

### Der Spiegel (Hamburq, Almaniya)

*Tramp öz həddinə çatıb*

İndi hətta Donald Trampın sonuncu fanatik tərəfdarı belə başa düşməlidir ki, ABŞ prezidenti söz verdiyi kimi Ukraynadakı müharibəni 24 saata bitirməyəcək. ABŞ-ın tələb etdiyi 30 günlük atəşkəslə razılaşmaq əvəzinə, Putin qismən atəşkəsi qəbul etməklə, sadəcə olaraq dostu Trampa yaxşılıq etdi... Bu, irəliyə doğru kiçik bir addım olsa da, ümumilikdə Rusiyanın tipik gecikdirmə taktikasına bənzəyir. Hər halda, bütün tərəflər əvvəlki kimi həqiqi sülhdən uzaq görünür.

### Reuters: ABŞ Rusiyaya qarşı əks-kəşfiyyat əməliyyatlarını dayandırır

ABŞ-ın bir neçə milli təhlükəsizlik qurumu Rusiyadan gələn təxribat, dezinformasiya və kiberhücumlara qarşı səylərin əlaqələndirilməsi üzrə işləri dayandırıb. Bu barədə martın 19-da Reuters agentliyi əvvəlki administrasiya dövründə bu məsələlərlə məşğul olan keçmiş məmurlara istinadən məlumat yayıb. "Prezident Donald Trampın andiçmə mərasimi ərəfəsində Baydenin nümayəndələri yeni administrasiyaya səylər barədə məlumat verdilər və keçmiş ABŞ rəsmilərinə görə, onları Rusiyanın hibrid müharibə kampaniyasına nəzarəti davam etdirməyə çağırdılar", Reuters xəbər verir. "Lakin Donald Tramp yanvarın 20-də vəzifəyə gəldikdən sonra işlərin çoxu dalana dirənib", agentlik 11 hazırkı və keçmiş məmura (hamısı anonim qalmaq istəyən) istinadən yazır.

Agentliyin mənbələri bildiriblər ki, yeni administrasiya dövründə Milli Təhlükəsizlik Şurası (MTŞ) FTB, Daxili Təhlükəsizlik Departamenti və Dövlət Departamenti də daxil olmaqla ABŞ agentlikləri arasında səyləri rəsmi şəkildə əlaqələndirməyi dayandırıb. Mənbələr həmçinin MTŞ-nin Avropa rəsmiləri ilə məsələ ilə bağlı müntəzəm görüşlərini dayandırdığını bildirib. Bununla belə, vəziyyətə nəzarəti dayandırmaq barədə qərarın hansı səviyyədə - prezident və ya ayrı-ayrı departamentlərin rəhbərləri tərəfindən qəbul edildiyi bəlli deyil.

Reuters-in məlumatına görə, "Rusiyanın artan hibrid müharibəsini" monitorinq etmək üçün işçi qrupları keçən il, Co Bayden vəzifədə olarkən yaradılıb. O, öz milli təhlükəsizlik komandasına bu əmri ABŞ kəşfiyyatının Rusiyanın Qərb ölkələrinə qarşı hibrid müharibə apardığına dair xəbərdarlıqları fonunda verib. Reuters mənbələrinin bildirdiyinə görə, əks tədbirlərin əlaqələndirilməsi planı prezidentin Milli Təhlükəsizlik Şurasının rəhbərliyi ilə hazırlanıb və ən azı yeddi milli təhlükəsizlik qurumunu cəlb edib.

# Razılaşdılar, amma...

## Vladimir Putin və Donald Tramp Ukrayna sülhünün şərtləri ilə bağlı razılığa gəliblər



### Brüssel və London Ukraynanı öz üzərlərinə götürürlər

ABŞ və Rusiya arasında Ukraynada atəşkəslə bağlı aktiv dialoq fonunda Avropa Kiyevə dəstək baxımından ləngiməmək qərarına gəlib. Aİ-nin xarici işlər üzrə rəhbəri Kaja Kallas Böyük Britaniyanın baş naziri Keir Starmerin sülh sazişindən sonra Ukraynanın təhlükəsizliyinə kömək etmək üçün "istəklilər koalisiyası" yaratmaq ideyasını müzakirə etmək üçün çərşənbə axşamı Londona gəlib. Bundan əlavə, Brüssel və Londonun yüksək rütbəli nümayəndələri Moskvaya iqtisadi təzyiqlərin artırılması və Kiyevə təkcə sülhməramlılarla deyil, həm də pulla köməklik edilməsi məsələsini qaldırıblar.

Donald Trampın Ağ Evə gəlişindən və xüsusilə də Avropanın mövqeyini nəzərə almadan nümayişkaranə şəkildə həyata keçirdiyi fəal sülhməramlı səylərin başlanğıcından Böyük Britaniyanın baş naziri Key Starmer Kiyevə Avropa yardımının baş kuratoru missiyasını öz üzərinə götürüb. Bu fonda təəccüblü deyil ki, Ukraynaya dəstəyin daha bir qızğın tərəfdarı, Aİ-nin Xarici Əlaqələr üzrə Ali Nümayəndəsi Kaja Kallas britaniyalılarla Kiyevə gələcək yardım məsələlərini ətraflı müzakirə etmək qərarına gəlib.

Kaja Kallas Böyük Britaniyanın xarici işlər naziri David Lammy və müdafiə naziri Con Healey ilə işgüzar nahar görüşləri üçün çərşənbə axşamı günü Londona gəlib. Britaniya Xarici İşlər Nazirliyinin məlumatına görə, görüşün mövzularından biri Ukraynada hələ də həll olunmamış münaqişə fonunda Avropanın müdafiəsi üçün maliyyənin birgə artırılması və silahlı qüvvələrin döyüş hazırlığının yüksəldilməsi üzrə "innovativ təşəbbüslərin" nəzərdən keçirilməsi olub. Keir Starmer bu yaxınlarda Rusiya ilə atəşkəs əldə edildikdən sonra Ukraynaya təhlükəsizliyini təmin etməyə kömək etmək istəyənlərdən ibarət qondarma koalisiya yaratmaq ideyasını irəli sürdü. Və Downing Street 10-un Kaja Kallasın gəlişi ərəfəsində elan etdiyi kimi, artıq 30-dan çox ölkə Ukraynada davamlı sülhün təmin edilməsinə kömək etmək arzusunu ifadə edib.

### Yeni həftədən nə gözləmək olar?

Bununla belə, əksəriyyət öz sülhməramlılarını münaqişə zonasına göndərmək üçün heç bir xüsusi istək bildirmədən, mənəvi dəstəklə məhdudlaşıb. Məsələn, Rusiyanın qonşuları Finlandiya və Polşa Ukraynada sülhməramlıların yerləşdirilməsi planını qızğın şəkildə dəstəkləyərək qeyd ediblər ki, Rusiya atəşkəsdən istifadə edərək qoşunlarını onlar üçün təhlükə yarada biləcək şəkildə yenidən yerləşdirməsi halında öz silahlı qüvvələri ölkədə qalmalıdır. Danimarka, İsveç, İrlandiya, Lüksemburq və Belçika da daxil olmaqla bir sıra digər ölkələr öz qoşunlarının sülhməramlı qüvvələrdə iştirak etmək imkanını istisna etməyib, lakin yekun qərarın sülhməramlı qüvvələrin aldığı mandatdan asılı olacağına dair xəbərdarlıqla. Beləliklə, hələlik yalnız Avropa sülhməramlıları ilə ideyanın təşəbbüskarı olan Böyük Britaniya və Fransa, eləcə də Avstraliya atəşkəsi təmin etmək üçün qoşun göndərməyə hazır olduqlarını bildiriblər. Və hətta o zaman hər üç ölkə dəfələrlə vurğulayırlar ki, onların planları yalnız Birləşmiş Ştatlar hərbi dəstək verərsə, reallaşa bilər, bunu Vaşinqton açıq-aydın etmək niyyətində deyil.

Londonun açıqladığı kimi, maraqlı ölkələr Ukraynada sülhün təmin edilməsinə başqa yollarla, xüsusən də təyyarələr, mühəndislik və maddi-texniki yardım göstərməklə və hətta hərbi əməliyyatların digər teatrlarında yerləşdirilən qüvvələri artırmaqla kömək edə bilər.

"İstəyənlər koalisiyasının" Ukraynaya tam olaraq necə kömək edə biləcəyi ilə bağlı daha ətraflı danışıqlar bu cümə axşamı London ərazisində keçiriləcək. Beləliklə, Kallas və onun britaniyalı həmkarları arasında budəfəki görüş bu mövzuda qarşıdan gələn danışıqlar ərəfəsində bir növ saat sinxronizasiyasına, eləcə də ABŞ tərəfindən Kiyevə münasibətin kəskin dəyişməsi fonunda Brüssel və Londonun birliyinin nümayişinə çevrilib. "Avropanın təhlükəsizliyi Ukraynadan başlayır. "Böyük Britaniya və Aİ Rusiyanın qeyri-qanuni işğalına qarşı durmaq və davamlı sülhü təmin etmək üçün lazım olan hərbi güclə Ukraynanı dəstəkləmək əzmimizdə həmrəydir", - müdafiə naziri Con Healey bildirib.

Bu arada Rusiya Avropa İttifaqını neytral tərəfdaşdan uzaq hesab edərək, Ukraynada avropalı sülhməramlıların yerləşdirilməsinin qəti əleyhinə olduğunu dəfələrlə vurğulayıb. Rusiya Federasiyası xarici işlər nazirinin müavini Aleksandr Qruşkonun bu həftə bəyan etdiyi kimi, bu ideyanın müzakirəsi üçün hələ əsas yoxdur və buna görə də hazırda sülhməramlılar haqqında danışmaq "arabanı atın qabağına qoymaq cəhdi" kimi görünür.

Kiyevin maraqları baxımından daha bir mühüm hadisə gələn cümə axşamına planlaşdırılıb - Aİ-nin növbəti sammitində Rusiyanın hələ əldə olunmamış atəşkəs şərtlərinə əməl etmədiyi təqdirdə onun cəzalandırılması mövzusu mütləq dinləniləcək. Və bu məsələdə London və Brüssel çoxlu təmas nöqtələri tapdılar. Böyük Britaniyanın xarici işlər naziri David Lammy bazar ertəsi qeyd etdiyi kimi, Moskvaya qarşı mümkün növbəti addımlar yeni sanksiyalar və dondurulmuş Rusiyanın maliyyə aktivlərinin müsadirəsi ola bilər. "Biz daha da irəli gedə və onların enerji və müdafiə sektorlarını hədəfə ala, neft gəlirlərini daha da sıxışdıra və dondurulmuş Rusiya aktivlərindən istifadə edə bilərik" Lammy deyib.

Çərşənbə axşamı Moskvaya iqtisadi təzyiqi artırmaq yolları, o cümlədən Rusiya aktivlərinin ələ keçirilməsi üçün "hüquqi və maliyyə örtüyü" Kaja Kallas ilə Britaniya tərəfi arasında danışıqların mövzusu olub. Nəhayət, Aİ-nin qarşıdan gələn sammiti öncəsi digər müzakirə mövzusu Ukraynaya təkcə hərbi deyil, həm də maliyyə dəstəyi məsələsi olub. Son bir neçə gün ərzində Aİ-nin xarici siyasət xidmətinin rəhbəri mahiyyətcə Kiyevə maliyyə yardımı etməyə hazır olanlar arasından başqa cür "istəklilər koalisiyası" yaratmağa çalışır. O, bu il Ukraynaya hərbi yardımı ikiqat artıraraq 40 milyard avroya çatdırmaq ideyasını irəli sürüb, bu təklifi Brüsseldə 27 Aİ xarici işlər nazirlərinin görüşündən sonra "geniş siyasi dəstəyə" malik olduğunu bildirib. "Ümid edirəm ki, biz irəliyə gedəcəyik, çünki masada oturanların hamısı başa düşdü ki, biz indi öz qətiyyətimizi nümayiş etdirməli və Ukraynanın özünü müdafiə edə bilməsi üçün ona dəstək verməliyik", - deyə avropalı diplomat qeyd edib.

Ancaq məlum oldu ki, o, bir çox cəhətdən xəyalpərəstliyi reallıq kimi qəbul edib. Ən azı Aİ-nin üçüncü və dördüncü ən böyük iqtisadiyyatları olan və əvvəllər Kiyevə qarşı səxavətləri ilə tanınmayan İtaliya və İspaniya xanım Kallasın təklifini dəstəkləməyə hazır olmadıqlarını açıq şəkildə bildiriblər. Eyni zamanda, həm Roma, həm də Madrid Rusiya və Ukrayna arasında atəşkəsin təfərrüatları ilə bağlı qeyri-müəyyənliyi nəzərə alaraq, Kiyevə hərbi yardımla bağlı hər hansı qərarın qəbul edilməsinin tez olacağına istinad ediblər.

Eyni zamanda, Kaja Kallas və Ukraynaya yardımın artırılmasının digər tərəfdarları üçün müəyyən rahatlıq o olub ki, Kiyevə öz vergi ödəyicilərinin pulları ilə kömək etmək istəməyən nə Macarıstan, nə də Slovakiya digər ölkələrin vəsait ayırmasına mane ola bilməyəcək - çünki töhfələr sırf könüllü olacaq.

**V.VƏLİYEV**

# Azərbaycan - Bosniya və Herseqovina: iki ölkə arasında fəal əməkdaşlıq



Azərbaycanın xarici siyasət kursunda Avropa ölkələri ilə sıx iqtisadi-siyasi əlaqələrin qurulması mühüm yer tutur. Avropanın enerji təhlükəsizliyində əvəzsiz mövqe qazanan Azərbaycan diplomatik gedişləri ilə dünyanın maraq dairəsindədir. Bu gün Azərbaycan ərazi bütövlüyünü təmin etmiş və iqtisadi baxımdan regionun lider dövləti kimi həm diplomatik, həm də iqtisadi danışıqlarda üstün mövqeni nümayiş etdirir. Azərbaycanın xarici siaysətində Şərqi Avropa və Balkan dövlətləri ilə əlaqələrin inkişafı mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbulu əlaqələrin davamlığına əsaslanır. Söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, ölkələrimizin Müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulanıb. Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin əhəmiyyətini qeyd edib.

## STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏ



Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd edib və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğuladı. Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Azərbaycanla Bosniya və Herseqovina bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və müxtəlif beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər. Azərbaycanın Balkan ölkələri ilə münasibətlərində Bosniya və Herseqovina ilə əlaqələr də mühüm yer tutur. Əhalisinin 51 faizini müsəlmanların təşkil etdiyi bu ölkə ilə münasibətlərin əsası hələ sovet dövründə qoyulub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci il oktyabrın 20-də Bakı və Sarayevo şəhərləri arasında dostluq və əməkdaşlıq sazişi imzalanıb, qardaşlaşmış şəhərlər münasibətləri qurulub. Ölkələrimiz arasında diplomatik münasibətlər 1995-ci ildə qurulub. Həmin il fevralın 9-da Bosniya və Herseqovina Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. Azərbaycanın Sarayevo şəhərində diplomatik nümayəndəliyi 2011-ci il martın 1-də təsis olunub.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi dialoq daim yüksək səviyyədə olub. Bu ölkənin ali və yüksəkvəzifəli şəxsləri ölkəmizə mütəmadi səfərlər ediblər. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç 2012-ci il oktyabrın 18-də ölkələrimiz arasındakı münasibətlərin tarixində ilk dəfə olaraq Azərbaycana rəsmi səfər edib. Olduqca zəngin proqramı olan həmin səfər çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr və imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfələr verib. Bosniya və Herseqovina Azərbaycanın təşəbbüsü ilə keçirilən mötəbər beynəlxalq tədbirlərdə daim ən yüksək səviyyədə təmsil olunub. Bosniya və Herseqovina IX Qlobal Bakı Forumunda, Cənub Qaz Dəhlizi Məşvərət Şurası toplantılarında və Azərbaycanın ev sahibliyi etdiyi digər tədbirlərdə ən yüksək səviyyədə təmsil olunub.

Bosniya və Herseqovina ölkəmizə qarşı hər zaman xüsusi münasibəti ilə seçilib. Strateji tərəfdaşlıq haqqında mühüm sənədin imzalanması əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəldib. Bəyannamədə iki ölkə arasında neft və qaz sahəsində əməkdaşlıq, Bosniya və Herseqovinanın Orta Dəhlizdə iştirakı məsələləri əksini tapıb. Azərbaycan Bosniya və Herseqovinaya investisiya qoyuluşunu genişləndirməyi nəzərdə tutur.

Bəyannamədə tərəflər dövlətlərimizin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına dəstəklərini, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasının regionda davamlı sülh, təhlükəsizlik və sabitliyin bərqərar olmasına xidmət edəcəyinə əminliklərini, həm ikitərəfli əsasda, həm də beynəlxalq arenada qarşılıqlı maraq doğuran sahələrdə ölkələrimiz arasında əməkdaşlığı dərinləşdirmək və genişləndirməklə münasibətlərin yüksəltməsinə yönəlmiş strateji tərəfdaşlıqlarını və bu strateji tərəfdaşlığın 4 əsas istiqamət - siyasi, iqtisadiyyat və ticarət, müdafiə və təhlükəsizlik, elm, təhsil və mədəniyyət üzrə həyata keçiriləcəyini bəyan ediblər.

## ETİBARLI DOSTLUQ NÜMUNƏSİ

Azərbaycan Bosniya və Herseqovina üçün yaxşı dost olmaqla yanaşı həm də mühüm ölkədir. Azərbaycan müxtəlif vaxtlarda Bosniya və Herseqovinaya humanitar yardım etməklə etibarlı dostluq nümunəsi göstərib. Belə ki, 2014-cü ildə Bosniya və Herseqovinada baş vermiş təbii fəlakət nəticəsində sel daşqınlarından zərər çəkmiş insanlar üçün Azərbaycan tərəfindən 336 min ABŞ dolları dəyərində humanitar yardım göndərilib. Koronavirusla mübarizəyə dəstək məqsədilə Azərbaycandan Bosniya və Herseqovinaya 2020-ci ildə 244 min dollar dəyərində tibbi və gigiyenik məhsullardan ibarət humanitar yardım, 588 min dollar məbləğində humanitar məqsədli maliyyə yardımı edilib. Azərbaycan 2021-ci ildə Bosniya və Herseqovinaya 160 min dollar dəyərində 40 min doza "AstraZeneca" peyvəndi göndərib.

Bütün bu müddət ərzində Azərbaycan həmin ölkənin bir neçə şəhərində mühüm lazımi infrastruktur layihələri həyata keçirib. Ölkələrimiz arasındakı münasibətlərdən söz açarkən Bosniya və Herseqovinanın Vətən müharibəsində Azərbaycana fəal dəstəyini xüsusi vurğulamaq lazımdır. Vətən müharibəsi zamanı bu ölkənin ali və yüksək səviyyəli nümayəndələri Azərbaycana dəstək ifadə edən bəyanatlarla çıxış edərək, ölkəmizin haqlı mövqeyini dəstəkləyiblər.

Bu gün Azərbaycan Avropanın yeni enerji xəritəsini formalaşdıran ölkə kimi səciyyələndirilir. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycanın Avropa bazarlarına daha çox həcmlərdə mavi yanacaq çıxartmağa qətiyyətli siyasi iradəsi də ortadadır. Ölkələrimiz arasında mövcud olan əlaqələr ikitərəfli münasibətlərin uğurlu inkişafına əsaslanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “XII Qlobal Forum dünyaya mesaj xarakteri daşıyırdı”

“Bakıda artıq XII Qlobal Forum keçirildi və bu forumun adıda çox maraqlı, eyni zamanda beynəlxalq ictimaiyyətə, yeni dünya düzənini formalaşdıran qüvvələrə mesaj xarakteri daşıyırdı. Dünya düzəninin yenidən düşünülməsi, çağırışların fürsətə çevrilməsi kimi mesajlar ötürürdü. Əslində Azərbaycan yürütdüyü siyasətlə beynəlxalq ictimaiyyətə, dünyaya, bəşəriyyətə və insanlığa həmişə töhvə verməkdən yana olub. Azərbaycan pandemiya dönəmində atdığı addımlarla dünya üçün bir nümunə ortaya qoydu. Vaksin millətçiliyi, pandemiya ilə mübarizə çərçivəsində atılan addımlar, 80-dən artıq dövlətə yardımların edilməsi və bir sıra təşəbbüslərin ortaya qoyulması yürütdüyü siyasətin mahiyyətindən xəbər verirdi”. Bu sözləri SİA-ya açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri Xəyal Başirov deyib.

Onun sözlərinə görə, bundan başqa biz Qoşulmama Təşkilatına rəhbərlik etdiyimiz 4 il müddətində, həmçinin ondan sonra da Bakı Təşəbbüs Qrupu vasitəsilə dünyada bəşəriyyət, insanlıq üçün, dünyanın bir çox dövlətləri üçün, Qlobal Cənub, bununla yanaşı inkişaf etməkdə olan yaxud zəif ölkələr üçün ciddi problemə çevrilən müstəmləkə siyasəti ilə mübarizəyə qalxmaqda Azərbaycanın atdığı addımlar danılmazdır: ”Eyni zamanda Azərbaycan bundan başqa öz ərazisində dəfələrlə ayrı-ayrı beynəlxalq nüfuzlu tədbirlərə ev sahibliyi edib. 2015-ci ildə Avropa Oyunlarına, İslam Oyunlarına ev sahibliyi etmişik. Həmçinin dəfələrlə mədəni tədbirlərə ev sahibliyi etmişik. Eyni zamanda dünya səviyyəsində COP29 kimi nüfuzlu iqlim tədbirinin keçirilməsi və digər sahələrə aid önəmli tədbirlərin keçirilməsi artıq Azərbaycanın ənənəvi olaraq dünyada ayrı-ayrı mötəbər tədbirlərin ev sahibinə çevrilməsini reallaşdırıb. Biz Bakı Qlobal Forumunu da bu gün keçirmirik. Qeyd edirik ki, bu XII Qlobal Forumdur.

2013-cü ildən Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı və Prezidentin himayəsi ilə keçirilən artıq XII tədbirdir. Bu tədbir dövri olaraq keçirilir. Sadəcə 2020-ci ildə pandemiya səbəbindən keçirilməyib. Bundan başqa hər il bu tədbir dövri olaraq keçirilir”.




Xəyal Başirov qeyd edib ki, bu tədbirin məzmununa və orada müzakirə edilən məsələlərin mahiyyətinə, həmin tədbirdə iştirak edən şəxslərin dairəsinə nəzər yetirəndə ayrı-ayrı dövlət, hökumətlərin başçıları, daha sonra əvvəlki dövlət, hökumət başçıları ilə birgə 13-15 mart tarixində keçirilmiş forumda 400-ə yaxın şəxs iştirak edirdi: ”Burada qeyd etdiyimiz kimi, adı ”Dünya düzəninin yenidən düşünülməsi: fürsətlərin çağırışa çevrilməsi” olsa da, ayrı-ayrı panellər mövcud idi. Bu panellər isə ayrı-ayrı mövzulara həsr olunmuşdu. Mövzulara Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verən problemlər, iqlim və enerji məsələləri və bir sıra digər məsələlər aid idi. Azərbaycan Prezidenti də bu fürsətdən istifadə edib beynəlxalq arenada bu məsələlərə aid öz mövqeyini bildirdi”.

***Xeyrənsə Piriyeva***

# Sergey Markov: ”Rusiya və Azərbaycan müəyyən gərginliklərə baxmayaraq əməkdaşlığı daha da gücləndirir”

Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov Rusiya və Azərbaycan arasında ikitərəfli əməkdaşlıqda təmasların intensivləşməsini ”Moskva-Baku” portalına şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, son həftələr Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində təmaslar açıq şəkildə intensivləşib. Vladimir Putin Azərbaycan Milli Məclisinin sədrini "Dostluq" ordeni ilə təltif edib, bu yaxınlarda Moskvanın mərkəzində Heydər Əliyevin abidəsi qoyulub, son günlər Bakıda Rusiya, Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında enerji sahəsində əməkdaşlığın yeni dördtərəfli forması yaradılıb, iki ölkənin mədəniyyət sahəsində əməkdaşlığa dair görüşü keçirilib, siyahını davam etdirmək olar. Davam edən çətin məsələləri nəzərə alaraq, bu addımlar münasibətlərdə daha sakit formada əməkdaşlığı doğru irəliləməyə işarə edirmi?***

- Məncə, müəyyən dərəcədə bəli. Qeyd etmək istərdim ki, münasibətlərdə müəyyən problemlər yarandıqdan sonra belə vəziyyət iki dövlət arasında iqtisadi əməkdaşlığa təsir etmədi. Bu istiqamət aydın şəkildə ayrılmışdı. Eyni zamanda, qarşılıqlı neqativ ifadələr də səsləndirilib. Lakin bundan sonra biz Rusiya rəsmilərindən mütəmadi olaraq konstruktiv bəyanatlar eşitməyə başladıq, dost Azərbaycan haqqında, hamının, hətta ən çətin məsələlərin də konstruktiv həllinin zəruriliyi, iki ölkə arasında münasibətlərə nisbi zərbə vurmağın mümkün olmadığı, iki xalqın müdrikliyinin hər şeyə qalib gələcəyi barədə bəyanatlar eşitməyə başladıq. Bu yaxınlarda biz Rusiya-Azərbaycan münasibətlərində əməkdaşlığın müxtəlif sahələrində cəmlənmiş müsbət təmasların olduğunu gördük.



Moskvada Heydər Əliyevin abidəsinin təməl daşının qoyulması həm də müəyyən dərəcədə təkcə BAM işçilərinin xahişinə hörmət deyil, həm də Azərbaycana, Rusiya-Azərbaycan münasibətlərinə və şəxsən Sovet İttifaqının inkişafına böyük töhfələr vermiş dövlət xadimi kimi Heydər Əliyevə hörmət əlamətidir. Heydər Əliyev ən yeni Azərbaycan-Rusiya münasibətlərinin əsasını qoydu, belə demək mümkünsə, bu münasibətlərin vacib olduğunu sübut etdi. Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edən Azərbaycan Prezidenti İlham Əliyev isə çox gözəl başa düşür ki, Azərbaycanla Rusiya arasında münasibətlər, müsbət münasibətlər bütün regionun bu günü və gələcəyi üçün vacibdir. Bugünkü hadisələr fonunda abidənin təməl daşının qoyulması təbii ki, simvolik görünür.



Rusiya ilə Azərbaycan arasında ikitərəfli təmasların intensivləşməsi ilə bağlı belə qənaətə gəlmək olar ki, hər ehtimala qarşı Moskva ilə Bakı arasında məsləhətləşmələr aparılıb və nəticədə hər iki tərəf müxtəlif növ neqativ bəyanatlara tabu qoymaq qərarına gəlib. Biz belə qənaətə gəldik ki, münaqişənin inkişafına imkan verməməliyik, bağlı qapılar arxasında vəziyyəti ciddi nəzarətə götürməliyik.

Hesab edirəm ki, bu qərar ona görə verilib ki, eskalasiya yalnız bizə ziyan vurur. Üstəlik, açıq-aydın görünür ki, kənar oyunçular bizim çətinliklərimizdən istifadə edərək gərginliyi daha da irəli aparmağa çalışırlar. Bununla maraqlananlar kifayət qədərdir.

Bu şəraitdə Moskva və Bakı qərara gəldi ki, problemlər qalmaqdadır və onların həlli üçün ciddi səylər, ciddi ikitərəfli iş tələb olunur, lakin emosiyaları və mənfi meylləri boğmaq daha yaxşıdır. Yəni, küncləri hamarlamaq üçün müəyyən bir vektor var.

Axı həm Moskvaya, həm də Bakıya tamamilə aydındır ki, çəkişmə ölkələrimizi daha da zəiflədir, ancaq zərərlidir; Moskva və Bakıya da aydındır ki, coğrafiyamızı dəyişmək, qonşuluğumuzu dəyişmək olmaz, müxtəlif sahələrdə strateji layihələrimiz hər iki tərəf üçün çox vacibdir. İqtisadi, nəqliyyat, logistika və enerji sahəsində əməkdaşlığın inkişafı vacibdir. Xalqlar arasında münasibətlərin müsbət olması vacibdir. Dost olmaq həmişə mübahisə etməkdən yaxşıdır. Biz Cənubi Qafqazda təhlükəsizlik məsələsində və daha ədalətli dünya nizamı məsələsində öz mövqelərimizdə razıyıq.

Bütün bunlar onu göstərir ki, biz, şübhəsiz ki, strateji tərəfdaş olaraq qalmaqda davam edirik və bütün ikitərəfli və çoxtərəfli əməkdaşlıq layihələri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir.

***- Bir ekspert kimi münasibətlərdə vəziyyəti daha da sabitləşdirə biləcək hansı addımları görürsünüz?***

- Son həftələrdə hər iki tərəfin qəbul etdiyi bütün qərarlar düzgün idi. Biz eyni ruhda davam etməliyik, münasibətləri korlamaq cəhdlərini aydın və sərt şəkildə boğmalıyıq. Məsləhət görərdim ki, kimlər əhval-ruhiyyəni qarışdırmağa cəhd edib, kimlər hipertrofiya, uca tərzdə neqativ danışıb, onları araşdırmağa başlayaq. Bundan əlavə, bütün mürəkkəb məsələlərin həlli üçün Rusiya ilə Azərbaycan arasında daha çox təmasların olmasını, kommunikasiya kanallarının olmasını tövsiyə edərdim. Və ümumiyyətlə, münasibətləri sakit şəkildə inkişaf etdirmək, yaradıcılığa yönəlmiş birgə fəaliyyətlərin sayını artırmaq vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

# Milli adət-ənənələrimiz nə üçün UNUDULUR?

SORĞU

***Azərbaycanın zəngin adət-ənənələri əsrlər boyu xalqımızın mədəni kimliyini formalaşdırıb və nəsildən-nəslə ötürülüb. Lakin müasir qloballaşma və urbanizasiya prosesi bəzi milli dəyərlərimizin unudulmasına səbəb olur. Gənclər arasında milli bayramlar, ailə dəyərləri və xalq oyunları əvvəlki kimi geniş yayılmır, bəzi ənənələr isə zamanla arxa plana keçir. Bu prosesin qarşısını almaq və milli irsimizi qoruyub saxlamaq üçün onların yenidən canlandırılması və təbliği vacibdir. Bəs vətəndaşlar bu barədə nə düşünür? Bununla bağlı SİA vətəndaşlar arasında sorğu keçirib.***



**Şəhər sakini Əzizə Əliağayeva:** "Hər hansı bir adət-ənənənin, bayramın yaxud da milli dəyərlərin yayılması üçün təbliğat xarakterli işlər aparılmalıdır. Həmçinin o bayram adət-ənənələrini biz əqidəcə çox möhkəm yaşamalıyıq. Halbuki bizim indiki dövrdə populyar mədəniyyətin inkişafına uyğun olaraq gənclər adət-ənənələrdən ayrılır. Belə deyə bilərik ki, biz 1990-cı illərin klassik hekayələrini oxuyan zaman onların təsiri çox gözəldir. 1990-cı illərlə 2020-ci illər arasında il cəhətdən çox da fərq yoxdur. Amma dəyişiklik cəhətdən fərq yoxdur. İndi bu dəqiqə sosial şəbəkələrdə milli dəyərlərimizdən fərqli olaraq Avropanın təsirləri gəncləri uzaqlaşdırır. Bizim lap əvvəllərdən milli dəyərlərimizin yaşadığımız ailə problemləri olsun, ailə funksiyaları olsun və s. onların hamısını indiki gənclər Avropa ideologiyaları ilə danışmağa başlayır".

**Şəhər sakini Nailə Sultanova:** "İndiki zamanda ənənələr bir yana qalsın, ümumiyyətlə insanlar çox dəyişib. Bir də ki, hal-hazırdakı vəziyyətdə gənclər çox dəyişib. Mənim fikrimcə, bunların səbəbləri gənclərə düzgün verilməyən tərbiyədir. Onun üçün ənənəvi milli dəyərlərimiz də gedir, arada olan hörmətlər də. Ortada heç bir şey qalmayıb. Hazırda isə bayramları kim necə istəyir elə də keçirir".

**Şəhər sakini Həsən Məlikov:** "Milli adət-ənənələrdən daha maraqlı fəaliyyətlər var. İndiki gənclərin hamısı demək olar ki, telefon və sosial şəbəkələrlə başlarını qarışdırırlar. Yəni onlarla məşğul olmaq daha maraqlıdır, nəinki milli adət-ənənələri keçirmək. Mən Novruzun bütün milli adətlərini bilirəm. Özüm də Şirvandanam. Bayramda da Şirvana gedəcəm, ailəmlə bir yerdə bayramı qeyd edəcəm. Bayram adətlərinə gəldikdə isə təbii ki, tanıyıram. Novruzun əsas adətləri olan tonqaldan atlanmaqdı, yumurta boyamaq və s. adətləri vardır".

**Şəhər sakini Oqtay Vəliyev:** "Mən sözün düzü gənclərin milli adət-ənənələr haqqında başqa cür düşüncələrini görməmişəm. O barədə bir fikir yürüdə bilmərəm. Ancaq qaldı ki lap qədimdə olan adətlərə, təbii ki, indi adətlərimiz fərqlidir. Regionlarda olan ənənələr bir az daha sadələşib. Biz uşaq vaxtı olan zaman qapıya papaq atmağa gedirdik. Bu, Novruz bayramının adətidir. Amma indi belə şeyə rast gəlinmir. Bunun əsas səbəbi kimi mən maddi vəziyyəti nümunə gətirə bilərəm. Çünki hər kəsin evində bilmək olmur axı Novruz bayramını qeyd etmək üçün imkanı var, ya yox. Belə qalanda isə hər şey öz qaydasındadır. Sadəcə, əvvəlki Novruz ab-havası yoxdur".

**Şəhər sakini Aytən Əliyeva:** "Milli adətlərin unudulmasında qlobalizasiya prosesləri baş verir. Bunun nəticəsi olaraq isə biz digər mədəniyyətləri mənimsəyirik. Yeni nəslin gəncləri isə adətlərə qismən olsa da üstünlük verdiyinin şahidi oluruq. Bu gün isə yaşlı nəslin adətlərə sadiq qalması haqqında düşünmüşəm. Mən özüm də orta yaşlı bir insanam. Lakin Novruz bayramının elə adətləri vardır ki, onu yeni öyrənirəm. Yəni biz qədim zamandan nəyisə itirə-itirə gəlirik. Çünki bunun səbəbi odur ki, əgər biz nənə-babamızdan hansısa adəti öyrənirik və həmin adət bizə tam versiyada çatdırılmır. Zamanla təbii ki, bu, özünü göstərir. Adətləri artıq müxtəlif cür formalarda icra olunmağa başlayır".

**Şəhər sakini İsvahan Əhmədov:** "Novruz bayramı qədim zamanlardan bu günə qədər bir çox adət-ənənələri ilə yadda qalıb. Lakin zaman keçdikcə bəzi adətlər unudulub və ya dəyişikliklərə məruz qalıb. Məsələn, "Qulaq falı" adəti indi geniş yayılmasa da, bir vaxtlar çox məşhur idi. İnsanlar axşam vaxtı qonşuların qapısına qulaq verər, eşitdikləri ilk sözə əsasən gələcəkləri barədə yozum edərdilər. Başqa bir unudulmuş adət "Süsən-sünbül" bayramıdır. Bu, Novruzdan əvvəl qeyd olunan bir gün idi və əsasən uşaqlar üçün nəzərdə tutulurdu. Onlar qapı-qapı gəzib pay toplayar, müxtəlif oyunlar oynayardılar. Lakin indi bu adətlərin demək olar ki, heç birinə rast gəlmək mümkün deyil".

**Şəhər sakini İlham Abbasov:** "Əvvəllər Novruz bayramı daha geniş şəkildə, xüsusi mərasimlərlə qeyd olunurdu. İnsanlar bayrama aylar öncədən hazırlaşar, hər evdə böyük şənliklər qurulardı. Qonşuluqda hər kəs bir-birinə pay aparar, küsülülər barışardı. Novruz axşamları süfrə başında böyüklər nağıllar danışar, qədim inanclarla bağlı söhbətlər edilərdi. Bayram günü təkcə ailə daxilində yox, bütün kənd və şəhər camaatı bir yerə yığılaraq müxtəlif oyunlar, yarışlar keçirərdi. İndi bəzi ənənələr unudulub, Novruz əsasən ailə daxilində qeyd edilir, əvvəlki qədər kütləvi şənliklər isə azalıb".

***Xeyrənsə Piriyeva***

# "Sirdaşlıq insanın dərin əlaqələr qurma qabiliyyətini göstərir"

"Sirr, bir şeyin gizli və ya bilinməyən olması deməkdir". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. Onun sözlərinə görə, insanlar tərəfindən qorunan və paylaşılmayan məlumatlara da sirr deyilir: "Sirr, həmçinin bir şəxsin özəl və şəxsi həyatını qorumaq məqsədilə gizlədilən məlumatlar, olaylar və ya hisslər ola bilər. Bəzən sirr, insanların arasındakı etimadı və ya xüsusi bağları qorumaq üçün də saxlanılır.






İnsanların fitrətində özlərinə sirdaş axtarmaq, güvəndikləri birinə ən dərin düşüncələrini və hisslərini açmaq istəyi vardır. Sirr, bir şəxsin etibarını qazanmaqla bərabər, böyük bir əmanətdir. Bu əmanəti qorumaq isə son dərəcə mühüm bir məsuliyyətdir. Sirrin yayılması, bu əmanətə xəyanət etmək deməkdir və insanların həyatına böyük təsirlər göstərə bilər. Sirr, bir həyat hekayəsini dəyişdirə biləcək qədər təsirli bir gücə malikdir. İnsanlar öz sirrini başqalarına açıqlayarkən, bu sirrin nə qədər ciddi nəticələr doğura biləcəyini nəzərə almalıdırlar.

Ailə, insanların ən yaxın olduğu, bir-birlərinin həyatına ən çox daxil olduğu və güvəndiyi bir sosial birləşmədir. Ailənin ən gözəl və dəyərli tərəflərindən biri də qarşılıqlı güvəndir. Hər bir ailə üzvü, bir-birinin sirrini qorumaq və ehtiramla yanaşmaq məsuliyyətini daşıyır. Ailədəki sirr, yalnız şəxsi məlumatlardan ibarət deyil, həm də ailənin birlikdə yaşadığı dəyərlər və mənəvi bağlarla əlaqəlidir. Ər və arvad arasında qarşılıqlı sirr paylaşımı, münasibətlərin güclü və sağlam olmasının əsasını təşkil edir".

"İslamda da sirrin qorunması çox ciddi bir məsələdir. Qadın və kişinin bir-birinin sirrini yayması, ciddi bir günah hesab edilir. Bu, yalnız dini bir məsələ deyil, eyni zamanda insani və mənəvi dəyərlərlə əlaqədar bir məsələdir. Hər iki tərəf bir-birinin güvənini qazanmalı və sirrini qorumağa sadiq olmalıdır. Sirrin yayılması, ailə içindəki bağları zədələyə bilər və güvənin itirilməsinə səbəb ola bilər. Ailə, yalnız birləşən şəxslərdən ibarət deyil, həm də qarşılıqlı ehtiram və güvənin təməlini təşkil edən bir qurumdur.

Bir şəxsin sirrini qoruma bacarığı, onun ən yüksək insani keyfiyyətlərindən biridir. Sirdaş olmaq, yalnız məlumatı saxlamaq deyil, həm də qarşı tərəfi anlayışla dinləmək, onu başa düşmək və həssas mövzularda diqqətli olmaq deməkdir. Sirdaşlıq bir insanın dərin əlaqələr qurma qabiliyyətini göstərir. Ailə içində sirr daşımaq, münasibətləri daha da möhkəmləndirir, çünki insanlar bir-birlərinə olan etimadlarını qoruyaraq həyatlarını birgə yaşayırlar.



Ailədə etibar, sağlam və uzunmüddətli münasibətlərin əsasını təşkil edir. Həyat yoldaşları bir-birlərinə sirlərini açmalı, hisslərini paylaşmalı və bir-birini anlamalıdır. Etibarın olmaması, güvənsizlik yaradır və bu da ailənin zəif təməl üzərində qurulmasına səbəb olur. Ailə, psixoloji dəstək sistemidir, ona görə də etibar münasibətlərin möhkəmliyi və sağlamlığı üçün vacibdir.

Nəticə olaraq, sirr daşımaq çox vacib bir məsuliyyətdir və bu məsuliyyəti daşıyan insanlar, öz yaxınlarına olan etibarlarını qoruyaraq həm şəxsi həyatlarını, həm də ailə münasibətlərini sağlam şəkildə davam etdirə bilərlər. Ailə içindəki sirlər, münasibətlərin dərinliyi və keyfiyyəti üçün ən önəmli amillərdən biridir və bu sirlərin qorunması, qarşılıqlı hörmət və etibarın əsasını təşkil edir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Hər gün ət yesək nə olar?



"Hər gün ət yemək bədən üçün bir sıra təsirlərə səbəb ola bilər. Bunun müsbət və mənfi tərəflərini izah edərək, elmi əsaslarla geniş açıqlama verə bilərəm". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib.

Ceyhunə Yusifova sözlərinə belə davam edib: "Ət yüksək keyfiyyətli protein, dəmir, B qrupu vitaminləri (xüsusilə B12), sink və digər vacib mineralların mənbəyidir. Bu qidalar əzələ quruluşu, immun sistemi, beyin funksiyası və qan dövranı üçün olduqca vacibdir.

## Hər gün ət yeməyin müsbət təsirləri

Zülal Təminatı: Ət əzələ quruluşu və bədən toxumalarının bərpası üçün əsas protein mənbələrindən biridir.

Dəmir və B12 Təminatı: Xüsusilə qırmızı ət, bədənin hemoqlobin istehsalına kömək edən heme-dəmir və sinir sistemini qoruyan B12 vitamini ilə zəngindir.

Toxluq Hissi: Zülal və yağ tərkibi yüksək olduğuna görə ət uzun müddət toxluq hissi yaradır.

## Hər gün ət yeməyin mənfi təsirləri

Ürək və Damar Xəstəlikləri Riskini Artıra Bilər:

Tədqiqatlar göstərir ki, xüsusilə qırmızı ət və emal olunmuş ətlər (kolbasa, sosiska, salyami və s.) doymuş yağ və xolesterin baxımından yüksək olduğu üçün ürək-damar xəstəlikləri riskini artıra bilər. Harvard Universitetinin apardığı araşdırmalara görə, hər gün emal olunmuş ət istehlakı ürək xəstəlikləri və diabet riskini artırır.

## Bağırsaq sağlamlığına mənfi təsir:

Hər gün həddindən artıq ət yemək bağırsaq mikroflorasının balansını poza bilər. Lif tərkibi aşağı olduğu üçün bağırsaq hərəkətlərini ləngidə bilər və qəbizlik yarada bilər. Bundan əlavə, qırmızı ətin həddindən artıq istehlakı bağırsaq xərçəngi riskini artırdığı tədqiqatlarla sübut olunub.

## Böyrəklərə yük düşə bilər:

Proteinlərin parçalanması nəticəsində bədəndə karbamid və kreatinin kimi tullantılar yaranır. Böyrəklər bu maddələri bədəndən çıxarmalıdır. Həddindən artıq protein qəbulu böyrəklərə yük salaraq uzunmüddətli problemlərə səbəb ola bilər.

## Sümük sağlamlığına mənfi təsir:

Araşdırmalar göstərir ki, uzunmüddətli yüksək protein qəbulu bədəndən kalsium itkisini artırır və sümüklərin zəifləməsinə səbəb ola bilər. Osteoporoz riski olan şəxslər üçün bu vacib məqamdır.

Nəticədə bu qərara gəlmək olar ki, ən optimal yanaşma - balanslı qidalanmadır.

Ət qidalanmada əhəmiyyətli rol oynasa da, onu hər gün yemək bədən üçün faydalı olmaya bilər. Ətin istehlakını həftədə 3-4 dəfə ilə məhdudlaşdırmaq, onu balıq, paxlalılar, yumurta, kəsmik, qoz-fındıq və tərəvəz əsaslı protein mənbələri ilə əvəzləmək daha sağlam seçimdir. Əgər hər gün ət yemək vərdişi varsa, aşağıdakı məqamlara diqqət etmək lazımdır:

Qırmızı ət istehlakını azaltmaq, əvəzinə toyuq, balıq kimi daha yüngül ət növlərinə üstünlük vermək.

## Emal olunmuş ətlərdən uzaq durmaq

Bol lifli qidalar (tərəvəz, paxlalılar, tam taxıllar) qəbul edərək bağırsaq sağlamlığını qorumaq.

Su qəbulunu artırmaq və aktiv həyat tərzi keçirmək".

***Ayşən Vəli***

# "Qlobal istiləşmə ciddi fəsadlar verir"

**İqlim dəyişmələri nəticəsində atmosferə buraxılan korbin emisyonları orta illik temperaturun 1.5 dərəcə artmasına səbəb olub. Bu tendensiya davam etsə, orta ilik temperatur gələcək onilliklərdə 2 dərəcəyə yaxınlaşma riski var. Alimlərin hesablamalarına görə, bu da gələcəkdə böyük təbii fəlakətlərin olmasına səbəb ola bilər". Bu sözləri SİA-ya açıqlamasında ETSN yanında ictimai şuranın sədri Amin Məmmədov deyib.**





Onun sözlərinə görə, bir çox qitələrdə əsasən quraqlıq geniş yayılır: "Bu da ərzaq təhlükəsizliyinə birbaşa təsir edir. Həmçinin daşqınlar və sellər, meşə yanğınları baş verir. Bunlar hamısı təbiətə çox böyük ziyan vurur. Yəni biomüxtəlifliyinə, bitki aləmin və heyvanat aləminə, eyni zamanda insan sağlamlığına, insan həyatının itkisinə səbəb olur. Bu baxımdan İqlim Dəyişikliyi mübarizə üzrə çərçivə konvensiyasının tərəflərinin görüşündə COP29 Bakıda keçirildi. Bununla mübarizə üçün səhiyyədə, beynəlxalq təşkilatlarda, bütün konvensiyaya çıxan dövlətlərin hər birinin üzərinə öhdəliklər düşür. Bu istiqamətdə də inkişaf etmiş ölkələr tərəfindən maliyyə ayrılır. Bunun isə həmin problemlərə nə dərəcədə kömək edib-etməyəcəyini zaman göstərəcək".

Həmçinin mövzu ilə bağlı "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli fikirlərini bildirib. Onun sözlərinə görə, son illər qlobal istiləşmənin səviyyəsi artıb: "Beynəlxalq ekspertlər ötən 2024-cü ili Yer kürəsində ən isti il olduğunu bildirmişdilər. Qlobal istiləşmə ciddi fəsadlar verir. Dünyanın şirin su mənbələri olan buzlaqlar əriyir, quraqlıq sahələri genişlənir, meşə yanğınları artır, su ehtiyatları tükənir. Sənayenin inkişafı, kənd təsərrüfatının genişlənməsi, plansız şəhərsalma, xaotik urbanizasiya əlavə ekoloji problemlərə yol açıb. Son 10 ildə qlobal iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması ilə beynəlxaq təşəbbüslər də artıb. Ötən il Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı COP29 keçirildi. Bakı konfransı qlobal iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması üzrə mühüm qərarları ilə yadda qaldı. Qlobal istiləşmənin əsas səbəblərindən birinin insan faktoru olduğu artıq kiməsə sirr deyil. Artıq sübuta yetirilib ki, antorogen təsirlər nəticəsində atmosferdə istixana qazları:karbon di-oksid, azot, metan və digər qazların miqdarı artıb. İnsan fəaliyyəti getdikcə dünyanı yaşanmaz bir hala gətirir. Dünyanın beyin mərkəzləri bu qərara gəlib ki, qlobal istiləşmə bu tempdə davam edərsə yaxın 150 ildə Yer kürəsi yaşanmaz hala gələcək. Azərbaycan iqlim fəsadları ilə mübarizə işinə böyük töhfələr verir. Çünki ölkəmiz qlobal iqlim dəyişiklikləri ilə bağlı vəziyyətin gerçəkdən ciddi olduğunu anlayır və iqlim fəsadları ilə mübarizə proqramına sadiqdir. Azərbaycan 2015-ci ildə imzalanmış Paris razılaşmasına uyğun olaraq karbon emissiyasının azaldılmasını öhdəsinə götürüb. 2050-ci ilə qədər ölkəmiz 1990-cı baza ili ilə müqayisədə karbon emissiyasını 40 faizə qədər azaltmalıdır. Ölkəmiz qlobal iqlim dəyişikliyinə mitiqasiya (yumşaltma) və adaptasiya ilə bağlı beynəlxalq təşəbbüslərə dəstək verir. Son illər ölkəmizdə karbon emissiyasının azadılması, bərpa olunan enerji zonalarının yaradılması istiqamətində önəmli layihələr icra olunub".

Elman Cəfərli bildirib ki, Azərbaycan qalıq yanacaq istehsalçısı və ixracatçısı olan ölkələrdəndir: "Lakin biz bərpa olunan enerjiyə keçidlə bağlı səyləri dəstəkləyirik. Qlobal miqyasda atmosferə istixana qazlarının atılmasında Azərbaycanın payı cüzidir. Ölkəmiz 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmiz bu sahədə qabaqcıl ölkələrin iri şirkətləri ilə anlaşma memorandumları imzalayıb.

Bu gün ölkəmizdə xüsusən iri şəhərlərdə hava çirkliliyinin əsas səbəbi antropogen amillərdir. Bakı və digər iri şəhərlərdə atmosferin çirklənməsi sənaye müəssisələrinin fəaliyyətinin, daha çox isə avtomobil sıxlığının nəticəsidir. Ötən əsrin 70-ci illərində Bakı və Sumqayıtda, Gəncədə atmosferi çirkləndirən əsas mənbələr sənaye müəssisələri idi. Lakin hazırkı dövrdə hava çirkliliyi yaradan amillərin başında daxiliyanma mühərriki ilə hərəkət edən nəqliyyat vasitələrinin sıxlığı gəlir. Rəsmi məlumata görə, 2005-ci ildə sənayedən olan tullantılar 53, nəqliyyatdan isə 47 faiz təşkil edirdisə, hazırda nəqliyyatın payına düşən tullantı həcmi 80 faizə yaxındır. Bu çirkləndiricilər əsasən azot oksidləri (NOx), dəm qazı (CO)kükürd qazı (SO2) karbohidrogenlər və digər maddələrdir. Əksər sənaye müəssisələrindən tullantılar atmosferə ekoloji qaydalara uyğun olaraq borular vasitəsilə müəyyən hündürlükdə atılır. Bu da onların atmosferdə daha tez səpələnməsinə imkan yaradır. Nəqliyyat vasitələrinin atdığı tullantılar isə insanın birbaşa nəfəs aldığı təpəqəyə daxil olur. Bakının gündəlik nəqliyyat sıxlığı müşahidə olunan ərazilərində hava çirkliliyi daha artıqdır.

Vəziyyətdən çıxış yolu kimi bərpa olunan enerji sektorunun genişləndirilməsi, iri şəhərlərdə yaşıl nəqliyyata keçid və digər addımlar təklif edilir. Ölkəmiz deyilən istiqamətdə nəhəng layihələr həyata keçirir. 2024-cı ilə qədər paytaxt Bakıda metro stansiyalarının artırılması, tramvay xəttlərinin çşəkilməsi, elektriklə işləyən avtobusların sayının artırılması planlaşdırılır. Şəhərdə velosiped yolları şəbəkəsi genişləndirilir. Yaxşı olar ki, Zığdan Şıxova qədər dəniz nəqliyyatlı sistemi yaradılsın. Qayıq-taksilər, sərnişin gəmiləri fəaliyyət başlasın. Metronun "Azadlıq prospekti" stansiyası ilə "Koroğlu" stansiyası arasına birbaşa xəttin yaradılması nəzərdən keçirilir. Düşünürəm ki, bu reallaşarsa, nəqliyyat sıxlığını xeyli dərəcədə aradan qaldıra bilər".

***Xeyrənsə Piriyeva***

# Təbiətin və kainatın töhfəsi - NOVRUZ!

***Azərbaycan xalqı çoxəsrlik tarixə malikdir. Bu tarixdə milli soy-kökümüzdən qaynaqlanaraq fərdi xüsusiyyətimizə çevrilən elə adət-ənənələrimiz vardır ki, onlar kimliyimizi ortaya qoyan, sübut edən amillərdir. Və əsrlərdir, yaşadılaraq bu günümüzədək gəlib çıxan adət-ənənələrimiz müasir dövrümüzdə xalqımızın tarixi kökünü bir daha açıqlayır, bu millətin tarix qədər yaşı olduğunu təsdiqləyir.***

70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar. Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu Öndərimiz deyirdi: "Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".








Artıq neçə illərdir ki, Novruz bayramı çox çətinliklə əldə etdiyimiz müstəqil ölkəmizdə təmtəraqlı şəkildə qarşılanır. Respublikamızın hər yeri-küçə və meydanları, parkları qədim milli bayramımız üçün bəzədilir. Hər kəs ən sevimli bayramı olan Novruzu ürəyincə qeyd edir. Oxuyan, oynayan, yallı gedən, milli oyunlarımızı, mərasimlərimizi, adətlərimizi nümayiş etdirən hər kəslə yaşanır, yaşadılır qədim bayramımız Novruz. Yaşadıla-yaşadıla dünəndən bu günə, bu gündən sabaha - yeni nəsillərə ərməğan edilir.



## Novruz barədə nə bilirik...

Novruz xalqımızın böyük mərasimlərindən biridir. Bu mərasim hər il mart ayının 20-21-də keçirilir. Şərq xalqlarının erkən əkinçilik, məhsul bolluğu etiqadları ilə bağlı bu mərasim hələ qədim zamanlardan el arasında böyük bayram kimi qeyd edilib. Xalq bu bayrama hazırlığa Novruza 40 gün qalmışdan başlayardı. Əvvəl çərşənbəyə qədərki 10 gündə hər yerdə təmizlik işləri aparılar, sayaçılar həyətbəhəyət gəzib dolün başlanması ərəfəsində sayadan pay alıb, pay verərdilər.

Novruzaqədərki birinci, ikinci, üçüncü və dördüncü çərşənbələrin də özünəməxsus şənliyi, ayini, etiqadı olardı. Axır çərşənbədə isə Novruz şənlikləri daha böyük təntənə ilə qeyd edilər, bir-birindən rəngarəng nəğmələr oxunar, ayinlər icra edilər, tamaşalar, oyunlar göstərilərdi. Bu çərşənbələrin də öz adı, adəti var. Birinci çərşənbə "Əzəl çərşənbə"dir. Buna "Yalançı çərşənbə" də deyərlər. Həmin çərşənbədə yandırılan tonqalın külünü göyə sovurub ucadan söyləyərlər: "Kiçik çillənin gözünə kül ələyirik!" İkinci çərşənbə "Muştuluqçu (müjdə verən) çərşənbə"dir. Bu çərşənbədə hamı bir-birinə muştuluq verər ki, çillə tamam-kamal sovuşub gedib. Sonra "Gül" çərşənbə gəlir. Bu çərşənbədə təmizlik eləmək, ev-eşiyi, paltar-palazı çırpıb, silib "gülə döndərmək" qaydadı. Qalır dördüncü - bayramdan qabaqkı çərşənbə. Həmin çərşənbə "İlaxır çərşənbə" sayılır. Ulularımız həftənin günlərini uğuruna, sayasına görə sınaqdan çıxarıb bir parasını ağır, bir parasını da yüngül sayıblar.

Həmin hesabla ən ağır gün çərşənbə axşamı, ən yüngül, sayalı gün cümə axşamı ilə cümədir. Ağır olduğundan çərşənbə axşamına baba-nənələrimiz "duz günü" deyərdilər. Həmin gün ev binəsi qoymaq, əkinə-biçinə başlamaq, toy-düyün etmək məsləhət bilinməyib. İşin binəsini cümədə qoymaq uğurlu sayılıb. Çərşənbə axşamı ağır gün sayıldığından ilin axırıncı həftəsinin həmin günündə tonqal qalayıb, odun üstündən atıla-atıla cəmi ağrı-acıları tökər, yeddi cür şirin nemət dadıb, nəhs gündən qurtular, sonra da xoş ovqatla o biri günlərə qədəm basıb Novruzu qarşılayarlar. Deyərlər ki, nə qədər ağrı-acımız, qada-balamız varsa, hamısını tökdük axır çərşənbə tonqalının üstünə.

Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Novruz yazın gəlişinə, torpağı yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır.

Daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların istiləşməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bütün bu ilkin, ibtidai sənət nümunələri isə sonralar Novruz ətrafında cəmləşmişdir.

Novruz mərasimini bəziləri yanlış olaraq Zərdüştlüklə, digərləri isə İslam dini ilə bağlamağa cəhd göstərmişlər. Lakin bütün cidd-cəhdlərə baxmayaraq, Novruz mərasimlərində dinlərdən qabaqkı təsəvvürlər tam aydınlığı ilə əks olunmaqdadır. Bu bayramın qədim insanların bolluq, bərəkət, əmək, əkinçilik və məişət həyatı ilə bağlı yarandığını əks etdirən solmaz şəfəqlər zaman keçdikcə daha qüdrətlə şölələnməkdədir.

*Ardı Səh. 12*

Əvvəli səh. 11

# Təbiətin və kainatın töhfəsi - NOVRUZ!

## Novruzu nə vaxtdan qeyd ediblər

Qədim bir türk əsatirində bu suala cavab tapmaq olar: Oğuz oğlu zağada yaşayanda qışdan yaman qorxardı. Ona görə də ilin üç fəslində qışa tədarük görər, dünyanın naznemətini zağaya yığıb gətirərdi. Bir il qış uzun çəkdi, onun azuqəsi qurtardı. Çarəsiz qalan Oğuz oğlu Böyük çillənin otuzuncu günü zağadan bayıra çıxdı ki, yeməyə bir şey tapıb gətirsin. Nə qədər gəzdi, dolandı, heç nə tapmadı. Saqqalı buz bağladı, əliayağı dondu. Kor-peşman evə qayıdanda yolda bir qurd balasına rast gəldi.

- Oğuz oğlu, bu qarda-boranda haradan gəlirsən?

Oğuz oğlu başına gələn əhvalatı danışdı. İlin aylarından gileyləndi. Dedi ki, elə ay var yaxşı dolanırıq, elə ay var acından qırılırıq. Ayları təriflədi, ayları yamanladı.

Qurd balası dedi:

- Ey Oğuz oğlu, qarşıdakı yolayrıcında səni bir sürü qoyun, bir qucaq sünbül, bir cəhrə, bir də əl dəyirmanı gözləyir. Onları alıb zağana apararsan. Qoyunu kəsib ətini yeyər, yunundan cəhrədə ip əyirər, özünə paltar toxuyarsan, dərisini əyninə geyinər, sünbülün dənini də əl dəyirmanında çəkər, undan çörək bişirərsən, yaza çıxarsan. Ancaq sənə verdiyim əmanətlərdən gərək muğayat olasan. Sünbülü və qoyunu özün artırarsan. Quzuları əlinin içində saxlayıb böyüdərsən. Sünbülün dənini yerə səpib, onu alnının təri ilə suvararsan. Dediklərimə əməl eləyə bilməsən, yaşamaq sənin üçün çətin olacaq.








Oğuz oğlu yolayrıcına gəldi. Qurd balasının dediklərini götürüb zağaya gətirdi. Qışı kefi kök dolandı. Yazda sürünü dağlara yaydı, sünbülün dənini torpağa səpdi, gecəgündüz sürülərin, taxıl zəmisinin qulluğunda dayandı. Oğuz oğluna bir bolluq üz verdi ki, gəl görəsən.

Deyirlər, oğuzlar elə o vaxtdan həmin günü ən əziz bayramlardan hesab eləmişlər. Həyatında yenilik başlandığından, o günə yeni gün adını verən Oğuz oğlu onu hər yaz bayram etmişdir. O gündən Novruz xalq arasında firavan yaşayışa, bolluğa, bərəkətə, yaradıcı əməyə çağırış rəmzinə çevrilmişdir.

Elə o gündən xalq bayrama 40 gün qalmış hazırlıq, təmizlik işlərinə başlayıb, Novruzqabağı nəğmələrini yaradıb. Bayramın bütün etnoqrafik cizgiləri Novruz nəğmələrində öz əksini tapıb. "Səməni", "A yel baba, yel baba", "İldə göyərdərəm səni", "Qoduqodu", "Yağış gəlir" nəğmələrində Novruzun bütün detalları əks olunur.

Xalq özünün həyat, sağlamlıq, təmizlik, əmək verdişləri ilə bağlı bir çox ayin, etiqad və mərasimlərini Novruzla bağlayıb, beləliklə də, onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olub. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qız-gəlinlər təzə çəkmə, al-əlvan don geyinərlər.



Novruz adətlərində ulu babalarımızın ən müdrik dünyagörüşü, humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir. Bu nümunələrdə təmizliyin əhəmiyyəti, onun təbliği, yaxşılıq, xeyirxahlıq, Vətəni sevmək kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər əks olunub.

## Novruz müasir dövrümüzdə

Novruz - bu, böyük bir tarixdir. Yaşanan, yaşadılan və yaşadılacaq bir tarix. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: "Necə ki, ötən nəsillər bu bayramı adətləri ilə yaşadıb, bizə təhvil vermişlər, bizlərin - müasir dövrün insanlarının da vəzifəsi ondan ibarətdir ki, bu adətləri olduğu kimi gələcək nəsillərə çatdıraq. Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir. Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyəti ilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır".

Xalqımızın qədim milli bayramı olan Novruzun müasir dövrümüzdə bütün adətənənələri ilə yadda qalması, davam etdirilməsi bu bayramın azərbaycanlılar üçün tarixi bayram olduğunu sübut edir. Qədim tarixi mənbələrdən, Novruzla bağlı tədqiqatçı alimlərin əsərlərindən oxuduğumuz yazılarda bu bayramın qədim dövrlərdə necə başlandığı, davam etdirildiyi, hansı adətləri özündə əks etdirdiyi ilə tanış olduqca və bütün bunlara müasir dövrümüzdə də şahid olan bizlərdə belə bir təəssürat yaranır ki, xalqımız öz tarixi keçmişinə, adət-ənənələrinə, mentalitetinə həmişə hörmətlə yanaşmış, ona sadiq qalmış və yüksək dəyər vermişdir.

Bu gün də Novruza qədər təbiətin dörd ünsürü - su, od, külək və torpaqla bağlı çərşənbələrin qeyd olunmasını, bütün evlərdə, bağ-bağatlarda "külə-külə" adəti ilə təmizlik işlərinin aparılmasını, Novruza 15 gün qalmış səməni cücərdilməsini, ilin axır çərşənbəsində tonqal çatıb, el-elatın həmin tonqalın başına yığışaraq deyibgülməsini və 20-21 martda Novruzun - yeni günün həyatımıza daxil olmasının təntənəli şəkildə qeyd edilməsini, əsrlər önçəki adət-ənənələrimizin olduğu kimi yaşadılıb bu günə qədər çatdırılmasını böyük mənəvi sərvətimiz kimi dəyərləndirmək olar. Dövlətimizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə, nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq".

Qədəmlərin mübarək, ulu Novruz! Qoy bu Novruz həyatımıza, elimizə-obamıza xoşbəxtlik, səadət, hər bir ailəyə sevinc dolu günlər, bol ruzi, ölkəmizə sülh, əmin-amanlıq, davamlı inkişaf gətirsin.

***Mətanət Məmmədova***

***Avropada ictimai əhval-ruhiyyənin radikallaşması artıq özünü bir neçə istiqamətdə göstərməkdədir. Son zamanlar avropalıların narazılıqlarının fonunda bu radikallaşmanı bütün dünya ictimaiyyəti müşahidə edir. Sözsüz ki, həmin radikallaşmanın və narazılıqlarının dərinləşməsi tendensiyaları təsadüfi, yaxud da səbəbsiz deyil və bunun çox dərin kökləri var. Daha dəqiq desək, Avropada radikallaşmaya da, narazılıqlara da səbəb problemlərdir.***



# Avropada radikallaşmaya səbəb olan PROBLEMLƏR

## Problemlər səbəbindən Avropada ifrat sağçı və millətçi siyasi qüvvələr ”peyda” olublar

İlk növbədə diqqətə çatdıraq ki, Avropada radikallaşmanın, narazılıqların birinci səbəbi iqtisadi məsələlərlə bağlıdır. Nəzərə almaq lazımdır ki, Avropa ölkələrinin iqtisadiyyatı uzun müddətdir ”çətinliklər” yaşayır. Qoca Qitənin xüsusən, Rusiya-Ukrayna müharibəsi nəticəsində durğunluq mərhələsinə qədəm qoyduğu da təkzibedilməzdir. İqtisadi durğunluq artıq illərdir ki, bir neçə istiqamətdə özünü göstərir. Məsələn, enerji daşıyıcılarının qiymətlərinin artması, aqrar sektorda böhran, aşağı maaşlar və ancaq sözdə olan, vəd edilən pensiya islahatları deyilən məsələlərlə bağlı narazılıqlar özünün pik həddinə çatıb. Heç şübhəsiz ki, bütün bunlar Avropanın iqtisadi və siyasi mənzərəsini dəyişə biləcək səbəblər və problemlərdir. Hər kəs də çox yaxşı bilir ki, həmin problemlər həm qısamüddətli, həm də uzunmüddətli nəticələrə malikdir. Təsadüfi deyil ki, bunun, yəni, həmin problemlərin fonunda ifrat sağçı və millətçi siyasi qüvvələr ”peyda” olublar və onların sıraları durmadan da artmaqdadır.İndi Avropa ölkələri bir çox narazılıqları, etiraz aksiyalarını ya gizlətməyə, ya da etiraz dalğasına hansısa don geyindirməyə çalışırlar. Amma reallıq ortadadır və görünən odur ki, insanların narazılıqlarına başlıca səbəb isqisadi məsələlərlə, problemlərlə bağlıdır. Avropnın düz ortasında nümayişçilərə qarşı qəddarcasına davranılması da təsadüfi deyil və məqsəd narazılıq dalğasını yatırmaq, ələlxüsus da problemləri gizlətməkdir. Rezin güllələrdən, gözyaşardıcı qazlardan, su şırnaqlarından, hətta, atlardan, itlərdən istifadə etməklə insanların etiraz aksiyalarını dağıtmaq, bununla da dünyanın ”diqqətindən yayınmaq” niyyəti ortadadır. Lakin dünya ictimaiyyəti çox yaxşı bilir ki, avropalılar iqtisadi problemlərlə üz-üzədir və nə qədər gizlədilsə belə, Avropanı bürüyən problemləri ört-basdır etmək mümkün deyil. Onsuz da mövcud probmenlər səbəbindən hansısa qüvvələrin meydana çıxması yenilik deyil və dünya təcrübəsi belə reallığın nəsən ibarət olduğu ortaya qoyur və bilavasitə problemlərin mövcudluğunu təsdiq edir.


© Zorana Jevtic/REUTERS

## Problemlərin birinin digərini əvəz etməsi narazılıqlara, etirazlara, gərginliyə və radikallaşmaya zəmin yaradır

Avropada bir neçə ildir ki, inflyasiya və qiymət artımı da diqqətdən yayına bilməz Məhz bunun özü də sosial gərginliyin səbəbi olub. Mərkəzi bankların müdaxiləsinə baxmayaraq, əmək haqqı artımı əmtəə və xidmətlərin qiymətlərinin artımına qətiyyən bir-biri ilə uyğun gəlmir. Bu uyğusuzluğu bir neçə istiqamətdə görmək mümkündür. Məsələn, Britaniyada həkimlər, müəllimlər, dəmiryolçular və digər mütəxəssislər mütəmadi olaraq maaşların artırılması tələbi çıxış edirlər. Onlar hətta mütəmadi şəkildə tətillər təşkil edirlər, narazılıqlarını, etirazlarını bildirirlər. Almaniya, Belçika və digər ölkələrdə aviasiya işçilərinin məhz iş şəraitlərinin yaxşılaşdırılması və maaşlarının artırılması tələbi ilə bu yaxınlarda tətilə çıxdıqları da hamıya yaxşıca bəllidir. Əlbəttə ki, bütün bu sadalananlar Avropa yaşanan problemlərə görədir və problemlər də məhz radikallaşmaya da səbəb sayılır.

Avropa Mərkəzi Bankı inflyasiyanı cilovlamaq məqsədilə faiz dərəcələrini davamlı şəkildə artırmağı çıxış yolu hesab edərək, vəziyyəti normallaşdırmağa, radikallaşmanın qarşısını almağa çalışsa da buna nail olmaq mümkün olmur. Əksinə, faiz dərəcələri artırıldıqca, bu siyasət vətəndaşların, xüsusən də ipoteka krediti olanların maliyyə vəziyyətini daha da çətinləşdirir. İspaniya, Portuqaliya və İtaliyada insanlar artan borc yüklərindən şikayətlənirlər. Polşada isə yüksək faizlər mənzil kreditlərinin ödənişini çətinləşdirib. Bir sözlə, problemin birindən yaxa qurtarmaq istədikləri zaman digəri yaranmış olur. Bu problemlərin birinin digərini əvəz etməsi də nəticədə avropalıların narazılıqlarına, etirazlarına və ümumiyyətlə, gərginliyə və radikallaşmaya zəmin yaradır.

## Problemlər Avropa Birliyinin demoqrafik böhranla üzləşməsi ilə bundan sonra daha da ağırlaşa bilər

Digər tərəfdən, Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropa alternativ mənbələrə keçərək nisbətən ucuz rus qazının idxalını azaltmağa məcbur olduğu da bir reallıqdır. Bununla belə, ABŞ, Norveç, Qətər olmaqla, yeni təchizatçılarla bağlanılan müqavilələr qazın qiymətinin kəskin artmasına səbəb olduğu da bəllidir. Buna görə də Almaniya, Çexiya və digər ölkələrdə minlərlə insan daha sərfəli enerji mənbələri tələbi ilə küçələrə axışırlar. Sosial narazılıqlar da bu şəkildə durmadan artır və gərginliyin, radikallaşmanın artmasına gətirib çıxarır. Yanacağın və gübrələrin qiymətlərinin yüksək olması və subsidiyaların kəsilməsi Fransa, Almaniya, Belçika, Hollandiya, İtaliya və İspaniyada fermerlərin etirazları ilə nəticələb. Bu arada onu da diqqətə çatdıraq ki, Avropada sosial bərabərsizlik pisləşdikcə, Belçika, Almaniya və İspaniyada minlərlə insan sosial xidmətlərə daha çox dövlət dəstəyi tələb etmək üçün küçələrdə etiraz aksiyaları təşkil edirlər.Əslində, hökumətlər uzunmüddətli həll yolları tapmasalar, tətillər və etirazlar hələ bundan sonra çox davam edəcək və hətta bu etirazlar səbəbindən daha acınacaqlı vəziyyət də gözləniləndir. Bu problem Avropa Birliyinin demoqrafik böhranla üzləşməsi ilə bundan sonra daha da ağırlaşa bilər, çünki hadisələr və problemlər belə bir ağırlaşma vəd edir. Çoxlu sayda yaşlı insanların pensiyalarını ödəmək üçün vergiləri istifadə edilməli olan gənc işçi çatışmazlığı olduğundan, vəziyyəti bərabərləşdirmək üçün pensiya yaşı artırılır. Təsadüfi deyil ki, Fransada pensiya yaşının artırılmasına qarşı kütləvi etiraz aksiyaları da keçirilib və bununla bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər halda, yüz minlərlə insanın nümayişlərdə iştirak etmək üçün küçələrə çıxdığı hələ də unudulmayıb. Müxtəlif mənbələrə görə, təkcə Parisdə bəzi günlərdə keçirilən etiraz aksiyalarında iştirakçıların sayı 1 milyon nəfəri keçirdi ki, bunun da Fransa üçün nə demək olduğu bəllidir.

## Avropa ”xoşagələn” durumda deyil və kiçik bir insident belə böyük etirazlara, nəticədə də böyük rezonansa səbəb ola bilər

Bütövlükdə, miqrasiyaya qarşı etirazlar və aksiyalar Avropada ictimai və siyasi diskursun mühüm hissəsinə çevrilib. Artan miqrasiya əhalinin tərkibində dəyişikliklərə, təhlükəsizliklə bağlı narahatlıqlara və sığınacaq siyasəti baxımından əhalinin narazılığına səbəb olub. Almaniyada, İtaliyada, İsveçdə və Fransada mütəmadi olaraq miqrasiya əleyhinə böyük nümayişlər keçirilir. Miqrantlara qarşı ”əhval-ruhiyyənin” kəskin şəkildə artmağa başlaması üçün miqrantlarla bağlı ən kiçik insident belə kifayət edir. Almaniya və İsveçdə artan anti-immiqrant hərəkatları fonunda hətta bəzi hallarda toqquşmalar da qeydə alınıb. Bundan sonra belə toqquşmaların olmayacağını kimsə deyə bilməz və hətta gözləniləndir də.Ümumiyyətlə, Avropa ölkələrində ictimai-siyasi qütbləşmə o qədər yüksək səviyyədədir ki, kiçik bir insident belə çox böyük etirazlara, nəticədə də böyük rezonansa səbəb ola bilər.

Məsələn, ötən ilin noyabrında Serbiyanın Novi Sad şəhərində qatar stansiyasının damının uçması və 15 nəfərin ölümünə səbəb olanda tələbələrin və müxalifətin etiraz aksiyalarına başladığı misal olaraq göstərilə bilər ki, bu heç də təsadüfi sayılmırdı. Bu günlərdə Belqradda nümayişlər pik həddinə çatıb. Bir çox nümayişlərdə iştirakçıların sayı ən azı 100 min nəfəri keçirsə, deməli, heç də Avropa ”xoşagələn” durumda deyil...

***İnam Hacıyev***

# “Amerikanın səsi” və “Azadlıq” radioları təxribatlarının qurbanı oldular

Hər zaman belə olub yalan, böhtan səsləndirənlər, qeyri-qanuni əməllər törədənlər nəhayət, ifşa olunublar. Azərbaycanın el məsəlində deyildiyi kimi, ”oğurluqla, əliəyriliyin ömrü 40 gün çəkər” və ya ”yalan ayaq tutar amma yeriməz”. Araşdırmalara əsasən demək olar ki, fəaliyyətlərini yalan, böhtan üzərində quran ictimai-siyasi təşkilatlar az sonra ya təbii proseslər nəticəsində sıradan çıxırlar ya da qapadılırlar. Uzun müddət ”Amerikanın səsi” və ”Azadlıq” radioları dezinformasiyaları, şər və böhtanları ilə meydan suladılar, cəmiyyətlərdə yalanları ilə ikili fikir formalaşdırmağa çalışdılar. Təbii ki, belə bir qərəzli fəaliyyətin sonu olmalı idi, oldu da. ABŞ-nin yeni prezidenti Donald Trampın ABŞ Qlobal Media Agentliyini (USAGM) ləğv etmək əmrindən sonra ”Amerikanın səsi” və ”Azadlıq” radiosu fəaliyyətini dayandırıblar. Eyni zamanda ”Azad Asiya Radiosu”nun da ( Radio Çin, Şimali Koreya, Myanma, Kamboca və sair ölkələrdə yayımlanırdı. İ.Ə. ) maliyyələşdirilməsi dayandırılıb. ”Amerikanın səsi”nin direktoru Maykl Abramovitsin bildirib ki, ”bu səhər öyrəndim ki, ”Amerikanın səsi” nin 1300-dən çox jurnalisti, prodüseri və texniki heyəti inzibati









məzuniyyətə göndərilib. Mən də onların içindəyəm. Bu tarixi media platformasının susması məni dərindən kədərləndirir”. ABŞ-nin keçmiş Milli Kəşfiyyat direktoru Rik Qrenell ”Amerikanın səsi” və ”Azadlıq” radiosu”nu qərəzlilikdə ittiham edərək bu media platformaların radikal solçuların meydanına çevrildiyini iddia edib. D.Trampın az qala vuran əli, danışan dili hesab olunan amerikalı milyarder İlon Mask ”X” sosial şəbəkəsindəki hesabında paylaşımında qeyd edib ki, dövlət tərəfindən maliyyələşdirilən ”Amerikanın Səsi” (Voice of America) və ”Azadlıq Radiosu” (Radio Free Europe/Radio Liberty) media layihələrinin bağlanmasını dəstəkləyir: ”ABŞ ”Azadlıq Radiosu” və ”Amerikanın səsi” radiostansiyalarını bağlamalıdır, çünki heç kim onları dinləmir, onların fəaliyyəti isə ildə təxminən 1 milyard dollara başa gəlir”. İlon Mask bu radiostansiyaları ”öz-özünə danışan dəli” radikal solçular hesab edir. O, ”Politico”, ”The New York Times” və ”Associated Press” nəşrlərinin də ABŞ hökuməti tərəfindən maliyyələşdirilməyəcəyini açıqlayıb. Bu isə ABŞ hakim dairələrinin reallıqları qəbul etdiyini və bir sıra ABŞ hökuməti tərəfindən maliyyələşən KİV-lərin təxribatlarla, şər və böhtanlar yayımlamaqla məşğul olduqlarını və bütün bunların ABŞ-nin beynəlxalq aləmdəki imicinə zərbə vurduğunu başa düşürlər. Təbii ki, ABŞ hökuməti üçün ən utancverici media orqanları ”Amerikanın səsi” və ”Azadlıq” radiolarıdır. Çünki sözügedən radiolar az qala terrorçularsayağı fəaliyyət yolu tutur, cəmiyyətləri təhdid edən informasiyalar yayımlayırdılar.

## Uzun illər bu radiolar Azərbaycana qarşı qərəz nümayiş etdiriblər

”Amerikanın səsi” radiosu 1942-ci ildən fəaliyyətə başlayıb və nasist Almaniyasının təbliğatına qarşı mübarizə üçün yaradılıb.



”Azadlıq” radiosu isə 1950-ci ildən fəaliyyətə başlayıb, ilk vaxtlar Şərqi Avropa ölkələrində, 1953-cü ildən sonra isə SSRİ-də yayımlanmağa başlayıb. Yayımlanmasının ilkin dönəmlərində ədalətli mövqeyi, şəffaf fəaliyyəti ilə seçilməyə çalışan radiolar sonradan boyunlarındakı iplərin ağalarının əlində olması səbəbindən qərəzli mövqe sərgiləməyə, təxribat xarakterli informasiyalar tirajlamağa başladılar. ABŞ hökuməti tərəfindən maliyyələşən ”Amerikanın səsi” və ”Azadlıq” radiolarının əsasən fəaliyyət istiqamətləri Azərbaycan kimi azad, demokratik, daim sosial, iqtisadi, hərbi cəhətdən güclənməkdə olan dövlətlər barədə dezinformasiya xarakterli informasiyalar paylaşmaq olub. ”Amerikanın səsi” və ”Azadlıq radiosu”nun 2020 -ci il iyulun 12-də erməni hərbi birləşmələrinin Tovuz istiqamətində törətdikləri təxribatları və sonra baş verənləri necə təqdim etdiyini araşdıranda bu radioların Azərbaycana qarşı qərəz və ”obyektivlik” prinsipinin necə olduğu aydınlaşır.

Məlum olur ki, bu üzdəniraq radiolar Azərbaycana qarşı açıq qərəz nümayiş etdirirlər. Ermənistanı müdafiə, Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən radiolar ”Azərbaycanda insan haqları pozulur”, ”azad media yoxdur” və bu kimi digər əsassız iddialar irəli sürürdülər. Sanki bunların çörəyi Azərbaycanı tənqid eləməkdən, vaxtaşırı verdikləri palaz-palaz yazılardan və açıqlamalardan çıxır. Reallıq isə ondan ibarətdir ki, Azərbaycanda insan azadlıqları Avropanın əksər ölkələrindən üstün nəticələrə malikdir. Ölkə Konstitusiyasının üçdə iki hissəsi insan hüquq və azadlıqlarını ehtiva edir. Bütün qanunvericí aktlar, normativ hüquqi sənədlər insanların azadlıqlarının təmin olunmasına hesablanıb.

## ”Amerikanın səsi”nin və ”Azadlıq” radiolarının bağlanması ilə erməni lobbisi sıradan çıxarılmış oldu

Özlərini ”obyektiv” media orqanı kimi təqdim etməyə çalışan . ”Amerikanın səsi” və ”Azadlıq” radioları 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən savaşı dönəmində də öz ənənəvi amplualarını davam etdirdilər. Erməni lobbisinin sifarişlərini icra edən ”Amerikanın səsi” və ”Azadlıq” radioları haqq savaşımızda bizi haqsız çıxarmağa çalışırdılar. Hər gün dezinformasiyalar və böhtanlar, yalanlar yaymaqla ermənilərin vandal əməllərini, soyqırım aktlarını ört-basdır etməyə cəhd edirdilər. Parlaq hərbi qələbəmizdən sonra da bu təxribat yuvası daha geniş və əhatəli formada ölkəmizə qarşı qarayaxma kampaniyası apardı. Bu vəziyyətin mövcudluğu ona dəlalət edir ki, bu üzdəniraq media orqanları Ağ ev tərəfindən maliyyələşsələr də erməni lobbisinin sifarişləri ilə fəaliyyətlərini qururdular. Sözügedən media orqanlarının Azərbaycan üzrə nümayəndəlikləri ölkəmizi hədəfə alır, özlərindən uydurduqları yalanlar, şər və böhtanlarla dövlətimizin imicini ləkələməyə cəhdlər göstərirdilər. Haqq-ədalət nəhayət, öz yerini tapdı. Hər iki təxribat maşını elə onlara maliyyə yardımları ayıran Ağ ev tərəfindən zərərsizləşdirildi. Bununla həm də, erməni lobbisi sıradan çıxarılmış oldu.

***İLHAM ƏLİYEV***

# Yer su qiyamətinin bir addımlığındadır

## Quraqlıq riski bütün dünyanı hədələyir, bəs biz su qıtlığına qarşı nə edə bilərik?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Əhalinin artması, həddindən artıq istehlak və israf, son illərdə qeyri-müntəzəm və qeyri-kafi yağıntılar səbəbindən dünya çox ciddi təhlükənin astanasındadır: quraqlıq. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 40%-i su qıtlığı ilə mübarizə aparır və 700 milyona qədər insan 2030-cu ilə qədər quraqlıq səbəbindən miqrasiya riski altındadır. Bu, həm də qida çatışmazlığı və epidemiyalar kimi bir çox risklər yaradacaq.***







### Təhlükə qaçılmaz olacaq

Dünyada hər il təxminən 55 milyon insan quraqlıqdan əziyyət çəkir. Qeyri-adekvat su ehtiyatları heyvandarlıq və kənd təsərrüfatı sektorlarına zərər vurmaqla yanaşı, insanların əsas dolanışıq vasitələrini də risk altına qoyur. O, epidemik xəstəliklər, məcburi köçlər və ərzaq qıtlığı kimi təhlükələr yaradaraq bəşəriyyətin həyatını təhlükəyə atır. Üstəlik, Yerdəki suyun yalnız 2,5 faizi şirin sudur.

Dünyadakı şirin su qaynaqlarının yalnız 10 faizi əlçatandır. Qalan şirin su ehtiyatları yeraltı sularda və buzlaqlarda mühafizə olunur. Dünyada 663 milyon insanın adekvat su ehtiyatlarına çıxışı yoxdur, hər gün 5 yaşınadək 800 uşaq qeyri-adekvat su, kanalizasiya və pis gigiyena şəraitinin yaratdığı ishaldan ölür. Dünyada qadınlar və qızlar evlərinə su daşımaq üçün ümumilikdə 200 milyon saat sərf edirlər.

Əhalinin artımı, sənaye və enerji sektorlarında artan tələb və istehlak nisbəti ilə birlikdə məişət sularından istifadənin artması qarşıdakı quraqlıq riskini daha aydın göstərdi. Son bir neçə onillikdə suya tələbatın artması dünya əhalisinin artımından iki dəfə çox artıb. 2040-cı ilə qədər bu tələbatın 4,350 milyard kubmetrə çatacağı bildirilir. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, növbəti 30 il ərzində qlobal sudan istifadənin ildə təxminən 1% artacağı gözlənilir.

### Biz nə edə bilərik?

Mövcud vəziyyətə nəzər saldıqda aydın olur ki, təcili tədbirlər görməliyik. Bu gün hamımız sudan istifadə, istehlak və idarə etmə üsulumuzu dəyişdirməklə gələcəyimizi təminat altına ala bilərik. Lakin bunlardan əlavə təsir zonamızı genişləndirmək üçün qlobal əməkdaşlıqlar etməyimiz vacibdir. Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə hər il martın 22-də keçirilən Ümumdünya Su Günü qeyd olunması bunun üçün yaxşı fürsətdir. Lakin bu mübarizəmiz 1 gündə deyil, ilin 365 günündə davam etməlidir.

Dayanıqlı İnkişaf Məqsədlərinin 6-cısı olan ”Təmiz Su və Kanalizasiya” maddəsi 2030-cu ilə qədər hər kəsin təhlükəsiz və əlçatan içməli suya çıxışını təmin etmək məqsədi daşıyır. Birləşmiş Millətlər Təşkilatına görə, bu məqsədə çatmaq üçün hökumətlər orta hesabla dörd dəfə daha sürətli işləməlidir. Ancaq bu, təkbaşına həll edə biləcəkləri bir vəziyyət deyil. Fərdi və institusional olaraq mübarizəni gücləndirməliyik. Məhz buna görə də kampaniyaların builki mövzusu ”tərəfdaşlıq və əməkdaşlıq vasitəsilə dəyişikliyi sürətləndirmək” kimi müəyyən edilib.

Yeraltı su ehtiyatlarımız yanlış kənd təsərrüfatı təcrübələri və iqlim dəyişikliyinin təsirləri səbəbindən sürətlə tükənir. İqlim dəyişikliyi su ehtiyatlarına çıxışa, su ehtiyatlarının səmərəliliyinə və miqdarına birbaşa mənfi təsir göstərir. İqlim dəyişikliyi səbəbindən 2000-ci ildən bəri sellə bağlı fəlakətlər 134 faiz artdığı halda, quraqlıqların sayı və müddəti əvvəlki 10 illə müqayisədə 29 faiz artıb. Son 50 ildə qlobal istiləşmənin 90 faizindən çoxu okeanlarda baş verib. Dəniz suyunun temperaturunun artması və buzlaqların əriməsi ilə əlaqədar növbəti 2000 ildə dəniz suyunun hündürlüyünün 1,5 dərəcə artımla 2-3 metr, 5 dərəcə artımla isə 19-22 metrə çatacağı proqnozlaşdırılır. Bu, o deməkdir ki, dünyada bir çox sahilyanı yaşayış məntəqələri su altında qalacaq.



### Milli sərvət - içməli su

Dünyada su ehtiyatları sonsuz deyil, sürətlə tükənir. Xüsusilə, 20-ci əsrin ikinci yarısından sonra əhalinin sürətlə artması, qidaya ehtiyacın artması, cəmiyyətin sənayeləşməsi, çirklənmənin artması və iqlim dəyişikliyinin təsiri su ehtiyatlarına təzyiq göstərir. Əhali sürətlə artdıqca, təmiz su ehtiyatları sabit qaldıqda və hətta getdikcə daha çox çirkləndikcə su problemi daha da aktuallaşır. Üstəlik, gündəlik istifadə etdiyimiz suyun dəyəri bu gün də yaxşı qiymətləndirilmir. Mövcud sudan kifayət qədər israfçılıqla istifadə olunur. Yalnış istehlak vərdişləri dünyanı gündən-günə su böhranına yaxınlaşdırır.

Dünyanın 70 faizi su ilə örtülüdür, lakin içməli su ehtiyatları bütün suyun yalnız 1 faizini təşkil edir. Bununla belə, mövcud içməli su mənbəyinin əlçatanlığı ciddi problemdir. Su ehtiyatlarının kəmiyyət və keyfiyyətcə qeyri-kafi və əlçatmaz olması təbiətə, cəmiyyətə və fəaliyyət göstərən iqtisadiyyatlara birbaşa təsir göstərir. Qlobal suya tələbat artır. Sosial, iqtisadi və ekoloji sahələrdə su problemi bəşəriyyət üçün əsas təhlükələrdən biri hesab olunur. Həyati əhəmiyyətinə görə ”Su iqtisadi sərvət olmamalıdır” fikri səsləndirilsə də, əslində içməli su indi ən çox ticari söz-söhbət yaradan təbii sərvətdir. Dünya ölkələri içməli suya çıxış, əlçatanlıq məsələsində bir-birindən gizlin tədbirlər görməkdir. Artıq qızıl yataqları, neft quyuları qədər içməli su ehtiyatları da milli sərvət hesab edilir.

### Hətta biz də...

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanmışdır. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Son 1 ildə Azərbaycanın su ehtiyatları minimuma düşüb. Həmişə bol sululuğu ilə məşhur olan Kür və digər kiçik çaylar quruyur. Dünyada gedən qlobal istiləşmə bizdən də yan keçmir, içməli su mənbələrimiz quruyur. Təəssüf ki, bizdən fərqli olaraq, bir çox dünya ölkələri bu həyati təhlükə ilə bağlı ciddi tədbirlər gördü. Azərbaycan su ehtiyatlarının az olduğu ölkələrdən biridir, ölkənin ümumi su ehtiyatının 70 faizi xarici mənbələr hesabına formalaşdığından qlobal problem başlayanda həmin 70 faiz su da bizə çatmayacaq. Transsərhəd çaylardan gələn suyu həmin ölkələr istifadə edəcək.

Kürdə suyun səviyyəsinin aşağı düşməsi məsələsinə gəlincə, bunun bir çox səbəbləri var. Onlardan biri Kür çayının mənbəyi olan Türkiyədə bir neçə su anbarının tikilməsidir. Mənbə sularının böyük hissəsi orada toplanılır və çaya az gəlir. İkincisi isə, Kürə axan kiçik çaylar ekoloji səbəbdən quruyub. Məsələn, meşələr qırılıb, qum, çınqıl daşları daşınılıb. Həmin çaylar lilli suyu Kürə gətirir və çayın aşağı axarlarında onun dibi yuxarı qalxır. Məhz ona görə də keçən il əksinə olaraq, dəniz suyu Kürə axmağa başladı. Üstəlik, Kür çayına təzyiq artıb. Ondan suvarmada nəzarətsiz və məhdudiyyətsiz istifadə edilir. Bir çox böyük plantasiyalar suvarma üçün Kür çayının suyunu normadan artıq götürürlər.

Qeyd edək ki, Azərbaycanın 30 faiz su ehtiyatı Qarabağda yerləşir. Həmin su ehtiyatlarından səmərəli istifadə edilsə, ətraf regionlar da vəziyyətdən çıxa bilər. Amma bu, kortəbii yox, sistemli, elmi şəkildə əsaslandırılmış işlər vasitəsi ilə həyata keçirilməlidir. Suyun düzgün paylaşdırılması, bölüşdürülməsi, su mənbələrinə normal təzyiq verilməsi kimi məsələlər nəzərə alınmalıdır. Yəni bir tərəfdə daha çox su istismar edib, digər tərəfdə qıtlıq yaratmamaq üçün düzgün kanalların çəkilməsi, alternativ mənbələrdən istifadə etmək lazımdır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
20 mart
2025-ci il

# ABŞ-da insanabənzər robotlar istehsal olunacaq

ABŞ-ın "Figure" şirkəti insanabənzər robotların özlərinə bənzər robotları yığacağı zavodu təqdim edib. Yeni müəssisə ildə 12 min vahid texnika istehsal etmək gücünə malikdir. İstehsalat tamamilə humanoid maşınların yaradılmasına yönəlib və proses zamanla daha da avtomatlaşdırılacaq.



Zavodun ilk istehsal xətti birbaşa şirkət daxilində hazırlanıb. Bu yanaşma "Figure"ə keyfiyyətə nəzarət etmək, robotların yığılma prosesinin effektivliyini artırmaq və konstruksiyada operativ dəyişikliklər etmək imkanı verəcək. İstehsalat sahəsi işlərin hər mərhələsinə nəzarəti təmin edin müasir rəqəmsal sistemlərlə təchiz olunub.



## Ulduz futbolçu ən böyük iki arzusunu açıqladı

"Barselona"nın parlamaqda olan gənc futbolçusu Lamin Yamal ən böyük futbol xəyalları ilə bağlı sualı cavablandırıb. SİA xəbər verir ki, o, AS nəşrinə açıqlamasında qalib olmaq istədiyi 2 turnirin adını açıqlayıb: "Barselona" ilə Çempionlar Liqasını və İspaniya millisi ilə Dünya Kubokunu qazanmaq mənim iki ən böyük arzumdur"


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Bakcell" "DaimOnline" ilə tələbələrə 5GB hədiyyə edir!

İnnovasiya və sürət lideri "Bakcell" Təhsilin İnkişafı Fondu (TİF) ilə birgə əməkdaşlığı çərçivəsində tələbələrə "DaimOnline" paketi ilə 5GB internet hədiyyə edir. Belə ki, "TələbəPlus" kartına sahib olan tələbələr bu üstünlükdən faydalana biləcəklər. Bu əməkdaşlığın əsas məqsədi tələbələrin rəqəmsal imkanlarını genişləndirmək, onların akademik və şəxsi inkişafını dəstəkləmək, eləcə də internetə daha rahat çıxışını təmin etməkdir.




Əməkdaşlıq çərçivəsində "TələbəPlus" kart sahibləri üçün xüsusi güzəştlər və əlavə imkanlar nəzərdə tutulur. "DaimOnline" paketi çərçivəsində tələbələrə hər ay 5GB əlavə internet bonusu təqdim ediləcək. Bu bonus onların təhsil prosesində onlayn resurslardan daha rahat və sərbəst şəkildə faydalanmasına imkan yaradacaq.

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və iqtisadiyyatın qeyri-neft sektorunun ən böyük investorlarından biridir. "Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## "Mübahisə əslində ünsiyyət dilidir"

"Ailə münasibətlərində böhranlar qaçılmazdır". Bu sözləri SİA-ya açıqlamasında uşaq, yeniyetmə və yetkin psixoloqu Nigar Ağabağırova deyib.

O bildirib ki, hər mübahisə böhran sayılmaz: "Mübahisə də əslində bir ünsiyyət dilidir. Bunu normal qəbul etməyimiz bizim üçün daha faydalı olar. Əsl problem duyğularını, aqressiyasını ifadə etməyə icazə verməyən valideynlərin olduğu ailədir. Bu duyğuları basdırma nəsildən nəslə keçən travmalarla bağlı ola bilər. Bu nəsildən-nəslə keçdiyi üçün o demək deyil ki, bu, sonsuzadək davam etməlidir. Bu zənciri qırmaq mümkündür və özünü inkişaf etdirən hər bir kəs bunu edəcəkdir.



Böhranı tamamilə aradan qaldıran üsul yoxdur. Eyni zamanda böhran baş verdiyi an onsuz da ailə üzvləri doğru düşünmək halında olmurlar. "Böhran bitdikdən sonra böhranı yaradan səbəblər nələr oldu? Hansı hadisədən sonra belə bir hal yaşandı?" suallarını özümüzə verməyimiz lazımdır. Böhrana yaradan səbəblərə ailə üzvlərinin xarakterindəki çətinliklər, doğru ünsiyyətin olmaması, ailə üzvlərində hər hansısa təşviş pozuntusunun (nevroz) olması, ailədəki rol və vəzifə bölgüsünün olmaması, hansısa üzvün daha çox yüklənməsi ola bilər.

Ailəni dağıtmaq fikri varsa, bunu etməzdən öncə ailəni toparlamaq üçün yolların olub-olmamasını incələmək lazımdır. Böhran anı yox böhrana qədər səbəbləri həll etmək bütün ailədəki insanlar üçün faydalı olacaqdır. Ara-sıra ailədə böhranların olması ailədəki insanların psixoloji immunitetini yaxşılaşdıracaqdır. Əgər özünüz böhran səbəblərini həll etməkdə çətinlik yaşayırsınızsa, mütəxəssisdən dəstək ala bilərsiniz".

*Söylü Ağazadə*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.

Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700